Термик емал олунмамыш $СдС_{1-й}Се_{й}$ назик тябягяляриндя фотокимйяви реаксийадан сонра фотощяссаслыьын спектрал пайланмасы шякил 1- дя тясвир олунмушдур. Шякилдян эюрцндцйц кими, фотокимйяви реаксийадан сонра $СдС_{1-й}Се_{й}$ назик тябягяляринин фотощяссаслыг спектриндя селенин мигдарындан асылы олараг $\lambda_1 = 0.75 \div 0.86$ мкм дальа узунлуьу интервалында йерляшян максимумларынын интенсивлийи кяскин артыр. й- ин артмасы иля максимумларын интенсивлйинин азалмасына бахмайараг онларын узун дальа тяряфя сцрцшмяси баш верир.

Термик емал олунмамыш $СдС_{1-й}Се_{й}$ назик тябягяляриндя фотощяссаслыьын бу сцр артмасы bir sıra işlərdə дя мцшащидя олунмуш вя еффект р- мяркязляриндя електронларын тутулмасы иля изащ олунмушдур. Фотощяссаслыг максимумларынын узун дальа сярщяддиндян й = 0.2 вя 0.8 тяркибли нцмуняляр цчцн бу мяркязлярин енерэетик дяринлийи щесабланмышдыр: $\varepsilon_r = \varepsilon_c - 1.57$ еВ $\varepsilon_r = \varepsilon_c - 1.38$ еВ.

Мцяййян олунмушдур ки, Т = 380 ÷ 400^{0}С температурда $\tau = 3 \div 7$ дягигя ярзиндя термик емалдан сонра нцмунялярин фотощяссаслыьы кяскин артыр. Оптимал шяраитдя термик емалдан сонра $\frac{I_f}{I_q} = 10^3$ тяртибиндя олuр вя фотощяссаслыьын бу гиймяти 7 – 8 ай ярзиндя сабит галыр. Термик емалдан сонра назик тябягялярин фотощяссаслыг спектри кяскин дяйишир (шякил 2). Бу заман, нцмунялярин фотощяссаслыг спектри узун дальа тяряфя эенишлянир вя фотощяссаслыг спектриндя $\lambda_2 = 0.95 \div 1.15$ мкм дальа узунлуьу областында даща бир максимум йараныр. Термик емал мцддятинин $3 \le \tau \le 4$ дягигя гиймятляриндян башлайараг λ_1- максимумун интенсивлийи азалыр, λ_2 - максимумуn интенсивлийи ися артыр. $\tau = 7$ дягигя ярзиндя термик емалдан сонра спектрдя биринси максимум итир, бу заман икинси максимумун интенсивлийи юзцнцн максимал гиймятиня чатыр.

Термик емалдан сонра $СдС_{1-й}Се_{й}$ назик тябягяляринин фотощяссалыq спектриндя $\lambda_2 = 0.95 \div 1.15$ мкм дальа узунлуьу областында йаранан максимумлар йени бир фотоактив мяркязлярин йарандыьыны эюстярир. Фярз олунур ки, бу мяркязляр $(V_{Cd} - Cd_i)^+$ донор-аксептор сцтляринин парчаланмасы иля ялагядардыр.



Шякил 1. Термик емал олунмамыш $CdS_{1-x}Se_x$ назик тябягяляриндя фотосяряйанын спектрал пайланмасы.

T = 300 K.

x : 1 – 0.2, 2 – 0.3, 3 – 0.4, 5 – 0.6, 6 – 0.8



Шякил 2. Термик емалдан яввял (1) вя сонра (2-4) $CdS_{0.2}Se_{0.8}$ назик тябягяляриндя фотосяряйанын спектрал пайланмасы.

T_e = 400° C.

τ_e, дяг: 1 – 0, 2 – 2, 3 – 4, 5 – 7.

Йаранмыш йени фотоактив мяркязлярин тябиятини айдынлашдырмаг мягсяди иля назик тябягялярин фототутум спектрляри вя максимумларда фотосяряйанын кинетикасы тядгиг едилмишдир. $CdS_{0,2}Se_{0,8}$ назик тябягяляриндя λ_1 = 0.86 мкм вя λ_2 = 1.15 мкм максимумларында фотосяряйанын кинетикасы шякил 3 – дя тясвир олунмушдур. Бу заман щяр ики максимум цчцн фотосяряйанын артмасы експоненсиал гануна, азалмасы ися щиперболик гануна (квадратик рекомбинасийа иля ялагядар) табедир. Бу ися ону эюстярир ки, йаранмыш йени фотоактив мяркязляр акцептор тябиятлидир. λ_2 = 1.15 мкм максимумунда ишыьын интенсивлийи артдыгда фотосяряйанын артма сцряти йцксялир, азалма сцряти ися демяк олар ки, дяйишмяз галыр.

Термик емал мцддятини 4 дягигяйя гядяр артдыгда λ_1 максимумунда фотосяряйан артыр (йяни $(V_{Cd} - Cd_i)^+$ донор-акцептор сцтляри парчаланыр), лакин λ_2 цчцн яксиня сяряйанын азалма вя артма сцряти кяскин азалыр (йени мяркязляр йараныр).

Mo/CдS$_{0,2}$Se$_{0,8}$ структурлары цчцн фототутум спектри термик емалдан яввял вя сонра (T = 380 ÷ 400^0 C температурда τ=0 ÷ 7 дягигя ярзиндя термик емалдан сонра) шякил 4- дя эюстярилмишдир. Фототутум спектриндя мцшащидя олунан биринси пилля (λ_1 = 0.86 мкм) щаггында мялуматлар чохдур. Лакин фототутум спектриндяки λ_2 = 1.15 мкм дальа узунлуьунда йерляшян икинси максимум йени – даща мцряккяб мяркязин йарандыьыны тясдигляйир. Фототутум спектриндян бу мяркязляр цчцн (x = 0,8 тябягяляри цчцн) енерэетик дяринлик щесабланмышдыр: $\varepsilon = \varepsilon_{\upsilon} + 1.08$ eB.

Мялумдур ки, йарымкечирисидя донор-акцептор сцтляринин йаранмасы, ашаьыдакы кимидир. Кулон гаршылыглы тясир гцввяси иля ялагядар олараг донорлар (D_i^+ вя йа D_i^{++}) вя акцепторлар (A_S^-) ясасында донор-акцептор сцтц йараныр (йа (D_i^+ A_S^-)^0 вя йа (D_i^{++} A_S^-)$^+$ типли).

Еффектив кцтля ганунуна ясасян бу комплекслярин йаранмасы ашаьыдакы дюнян реаксийа иля тясвир олуна биляр:

$$D_i^+ + A_S^- \Leftrightarrow C^0 \tag{1}$$

Таразлыг шяраитиндя сцтлярин консентрасийасы $C^0(N_c)$ вя онларын донор-акцептор компонентляри юз араларында ашаьыдакы тянликля ялагядардыр:

$$\frac{N_c}{N_D N_A} = k_e(T) \tag{2}$$

бурада,

$k_e(T) = \beta\, exp\left(-\frac{\Delta\varepsilon_c}{kT}\right)$ - комплекс йарадысы сабитдир, β - D_i^+ вя A_S^- атом сцтляри арасындакы ялагядя олмама ещтималыны эюстярир, $\Delta\varepsilon_c$ - (D_i^+ A_S^-)^0 донор-акцептор сцтляринин ялагя енержисидир.



Шякил 3. Термик емалдан яввял (1, 3) вя сонра (2, 4) $CdS_{0.2}Se_{0.8}$ назик тябягяляриндя фотосяряйанын кинетикасы.

$T_e = 400°$ C , $\tau_e = 7$ дяг

λ, мкм: 1, 4 – 0.78, 2, 3 – 1.15



Шякил 4. Термик емалдан яввял (1) вя сонра (2, 3) $Mo/CdS_{0.2}Se_{0.8}$ структурларынын фототутум спектри.

$T_e = 400°$ C

τ_e, дяг: 1 – 0, 2 – 4, 3 – 7

Бу нюгтейи-нязярдян беля бир фикир йцрцтмяк олар ки, термик емалдан сонра парчаланан $(V_{Cd} - Cd_i)^+$ ъцтляри даща дярин комплекс сявиййяляри йарадыр. Беля эюруцнцр ки, бу мяркязляр $(V_{Cd} - O_i)^+$ комплексляриня аиддир. Беля ки, яэяр бу мяркязляр башга мяркязляря аид олсайды (мясялян, кадмиумун щяр щансы бир дивакансийаларына), онда йцксяк температурлу термик емалдан сонра онлар йох олмалыйды. Тядгигатларымызда бу сцр щадися мцшащидя олунмадыьындан, беля сюйлямяк олар ки, термик емалын башланьысында (Т ≤ 200^0Ъ) O_2 атомлары кадмиум вакансийаларыны тутур, икинси мярщялядя ися (Т ≥ 200^0Ъ) онлар Cd_i ионлары иля даща мцряккяб $\left[(V_{Cd} - O)^+ - Cd_i^+\right]^{++}$ комплексляринi йарадыр.

Назик тябягялярдя баш верян фотокимйяви реаксийалардан сонра $\left[(V_{Cd} - O)^+ - Cd_i^+\right]^{++}$ мцряккяб донор-акцептор комплексляри ашаьыдакы кими парчаланыр:

$$\left[(V_{Cd} - O)^+ - Cd_i^+\right]^{++} + e^- \begin{array}{l} \rightarrow Cd_i^+ \\ \rightarrow (V_{Cd} - O)^0 \rightarrow V_{Cd} + O_i \end{array} \qquad (3)$$

СдС1-йСей назик тябягяляри цчцн селенин мигдарындан асылы олараг бу мяркязлярин йаранма енержиси $\Delta\varepsilon_c = 0,09 \div 0,12$ ev вя онларын консентрасийасы $W = 2 \cdot 10^{13} \div 10^{14}\ sm^{-3}$ щесабланмышдыр.

ABSTRACT

In this article investigation of formation mechanism of deep sensitive (activated) centers in thin layers of $CdS_{1-y}Se_y$ (with no hallogen remain/derivative) obtained by electrochemical precipitation method, in addition, investigation of their nature by methods of photoconductance and photocapacitance spectroscopy were conducted. Spectral distribution of photosensitiveness following photochemical reaction in thin layers of $CdS_{1-y}Se_y$ with no thermal refinement.
Spectral distribution of photocurrent in T_e = 400 ^{0}C in thin layers of $CdS_{0.2}Se_{0.8}$ before and after thermal refinement were given.
In conclusion, it has been suggested that $(V_{Cd} - Cd_i)^+$ pairs splitted after thermal refinement form even deeper complex levels. It seems that these centers belong to $(V_{Cd} - O_i)^+$ complexes.

РЕЗЮМЕ

В статье получены методом электрохимического осаждения раствора $CdS_{1-y}Se_y$ (которые не имеют избыточную халькогена) тонкие слои чувствительных центров механизма, а также их введение в природе методов ФП и fototutum спектроскопии рассмотренных. Fotokomyəvi тонкие слои тепловой элек-тростанции необработанного $CdS_{1-y}Se_y$ fotohəssaslıgın спектрального распределения рассматри-ваемой реакции.

Кроме того, до и после термической обработки $CdS_{0.2}Se_{0.8}$ fotocərəyanın спектральное распределение тонких слоев указаны на Te = 400^0C.

Итоговый пришли к выводу, что такая идея, что yurudulmusdur разрушенной после термической обра-ботки (VCD-Cd_i) + пары создать более глубокие уровни комплекса. По-видимому, эти центры $(V_{Cd}\text{-}O_i)^+$ комплексы.

NDU-nun Elmi Şurasının 24 dekabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 05)

Məqaləni çapa təqdim etdi:

TEXNİKİ ELMLƏR

MƏMMƏD RƏCƏBOV
Naxçıvan Dövlət Universiteti

UOT: 510

YENİ İNFORMASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ İLƏ CƏBR VƏ ANALİZ KURSLARININ TƏLİMİ PROSESİNDƏ FƏNLƏRARASİ ƏLAQƏLƏRİN HƏYATA KEÇİRİLMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Açar sözlər: *riyazi analiz və cəbrin tədrisi, informasiya texnologiyaları, kompüter, müəllim hazırlığı, məqsəd və vəzifələr, metodika, fənlərarası əlaqə*

Key words: *inter-subjects communication teaching algebra and mathematical analysis, information technology, computer, teacher training, goals and objectives, methodology,* contact with interdisciplinary

Клочевые слова: *преподавание математический анализ и алгевры, информационные технологии, компьютер,подготовка учителей, цели и задачи, методика, свазь между предметами*

Ali pedaqoji məktəblərdə yeni informasiya texnologiyalarının tətbiqi ilə cəbr və riyazi analiz kursunun tədrisinin elmi-nəzəri əsaslarının yaradılması, praktik məsələlərin həllində keyfiyyətli nailiyyətlərin əldə olunmasında rol oynayır.

Riyazi analiz və cəbr kurslarının tədrisində kompüterlərdən istifadə, proqramların və yeni dərsliklərin variantlığı, bu kursların tədrisinə yanaşmaların müxtəlifliyini meydana çıxarır ki, bu da özünü fənlərarası əlaqələrdə əks etdirir. Bir çox hallarda riyazi analiz və cəbr kurslarının tədrisində əldə olunmuş biliklər fizika, kimya, coğrafiya, texniki fənlər və s. kursların öyrənilməsində tətbiq edilir. Yəni fizika, kimya və s. kurslardakı nəzəriyyələrin tədrisində müvafiq riyazi aparatın, modelin qurulması həmin nəzəriyyələrin nəzəri və praktiki istiqamətlərdə tədrisində bir baza kimi özünü əks etdirir. Ehtimal nəzəriyyəsi və statistikanın elementlərinin kompüterlərlə tədrisində qurulmuş aparata birləşmələrin (kombinatorikanın) daxil olunması mahiyyətcə yeni modelin yaranmasına səbəb olur.

Bu problemlər həm də fizikada statistik nəzəriyyələrin qurulması, biologiyada genlərin öyrənilməsi və s. kimi kursların öyrənilməsində geniş imkanlar yaradır.

Riyazi analiz və cəbr kurslarının tədrisində fənlərarası əlaqələrin tətbiqində riyazi məntiq və riyazi danışıq dilinin real dillə müqayisəsində onun təlimi prinsipcə mühüm əhəmiyyət kəsb edir. Tədris prosesində tam dəqiq, qüsursuz və nöqsansız riyazi danışıq dili təfəkkürün inkişafına və dilin yüksək səviyyədə mənimsənilməsinə təsir edir. Həm də təbiət və humanitar elmləri arasında danışıq dili riyaziyyatın fənlərarası əlaqələrdə tətbiqində keyfiyyətli bilik əldə olunmasında rol oynayır.

Kompüterlərin tətbiqi ilə riyazi analiz və ali cəbr kurslarının fənlərarası əlaqələrdə tətbiqi ilə bağlı yeni elektron dərsliklərinin vəsaitlərinin yaranması bir problem kimi qarşıda durur. Dərsliyin funksiyası digər elektron kitablardan fərqli olaraq özünün interaktivliyində, tələbələrin bilik, bacarıq və vərdişlərə yiyələnməklərində özünü göstərməlidir. Bu halda həm də riyazi analiz və ali cəbr kurslarından əldə olunan elmi biliklərin fənlərarası əlaqələrdə diferensiyası və inteqrasiyası prosesi öz müsbət həllini göstərir.

Yeni informasiya texnologiyalarının tətbiqi ilə riyazi analiz və ali cəbr kurslarının tədrisi və fənlərarası əlaqələrində tətbiqində kompüterlərdən istifadə təlimin məqsəd, məzmunu, metod, vasitə və formalarına baxılmasını tələb edir, bu göstəricilər isə yeni metodik sistemin qurulmasını qarşıya qoyur. Bu isə böyük problemlərin yaranmasına səbəb olur. Lakin müasir tələblərə uyğun maddi-texniki baza yaradıldıqda müasir təlim metodlarının inteqrasiyası nəticəsində müəllimin qarşısına çıxan bütün çətinliklər aradan qalxır, bu proses isə riyaziyyat kursunun bir çox istiqamətlərində şagirdlərin kompüterlərlə işləmə vərdişlərini möhkəmləndirir və daha da həvəsləndirir. Bu göstərilənlər müasir tələblərə uyğun olduqda, təlimin səmərəliliyi özünü yüksək səviyyədə əks etdirir.

Digər tərəfdən bu proses şagirdlərin təfəkkürünün formalaşmasına, dünyagörüşünün artmasına, onlarda fərdi keyfiyyətlərin meydana gəlməsinə, intellektin inkişafına səbəb olur ki, bu da əldə olunan biliklərin həm də başqa təbiət və humanitar elmlərdə özünü əks etdirir.

Gələcək müəllimlərin riyazi, pedoqoji ve pisxoloji hazırlığının yüksək səviyədə olması həm riyaziyyatın ve həm də riyaziyyatın fənlerarası əlaqəlёridə böyük rol oynayır

Elm və texnikanın sürətlə inkişafı həm də riyaziyyat və fizika elmləri ilə bağlıdır. Riyaziyyat və fizikanın bir çox bölmələrini bilmədən onların bir çox nəzəriyyələrindəki məsələlərin həlli kompüterdə mümkün deyil. Digər tərəfdən riyazi analiz və cəbr kursların kompüterlərlə tədrisinin fənlərarası əlaqələrdə tətbiqi gələcək ilkin müəllimlərin keyfiyyətli bilik qazanmalarında rol oynayır və belə bir prosesin modelinin düzgün qurulması həm də tələbələrin peşə hazırlığında, onların gələcəkdə riyazi inkişafında müstəsna rol oynayır.

Son zamanlarda istər ümumi təhsil məktəb riyaziyyatı istərsədə ali pedaqoji məktəblərdə tədris olunan riyazi nəzəriyyələr coğrafiya, iqtisadiyyat, dilçilik , biologiya, psixologiya və s. elmlərə sirayət etmişdir, başqa sözlə həm təbiət elmlərinə həm də humanitar elmlərə sirayət etmişdir. Buna görə də elm və texnikanın sürətlə inkişafı nəticəsində yeni elm sahələrinin yaranması müxtəlif fənlərlə əlaqələri daha da möhkəmləndirir və qarşıya çıxan formalizmin aradan qaldırılmasında rol oynayır.

Riyazi analiz və cəbir kurslarında fənlərarası əlaqədən istifadə digər dəqiq fundamental təbiət və humanitar elmlərdə biliklərin dərinləşməsinə səbəb olur və analogiyadan istifadə etmək, təkrarçılığı aradan qaldırmaq yüksək səviyyədə keyfiyyətli bilik əldə etmək və s. kimi üstünlükləri meydana çıxarır. Fənlərarası əlaqənin nəzəri və praktiki istiqamətlərdə öyrənilməsi digər elmlərin öyrənilməsində keyfiyyətli bilik əldə olunmasına gətirib çıxarır. Və bu əlaqələrin tamlığın da öz təsirini göstərir.

Yeni informasiya texnologiyalarının tətbiqi ilə riyazi analiz və ali cəbr kurslarının tədrisinin metodiki vəsaitlərinin hazırlanması böyük rol oynayır. Birdəyişənli funksiyaların diferensial hesabının tədrisi metodikası, çoxdəyişənli funksiyaların diferensial hesabının tədrisinin metodiki məsələləri, adi diferensial tənliklərin seçimi, sıralar nəzəriyyəsi, çoxdəyişənli funksiyaların inteqral hesabı, kompleksdəyişənli funksiyalar nəzəriyyəsinin elementləri və operasiya hesabı, ehtimal nəzəriyyəsi və riyazi statistikanın elementlərinin yeni informasiya texnologiyalarının tətbiqi ilə tədrisi metodikası hazırlanmalıdır. Bu halda əldə olunan nailiyyətlər gələcək müəllimlərin sənətə marağını daha da gücləndirir və öz peşəsində müsbət təsirini göstərir.

ƏDƏBİYYAT

1.Алешии Н.В., Ю.Н. Новое направление подготовки спе-циналистов в университете- С-Петербург. Сборник научных трудов Изд-во СПБГМТУ 1991 г. С.35-41.
2.Л.Б.Бреслав, А.И.Гинзвург, Н.В Алешин. Расчет цены подготовки специалиста.
3.Материалы международной конфереции «Экономика и управление высшей школой» г. Красногорск 1992 г. С.74-75.
4.Müdafiə Mahmudov. "Riyaziyyatın tədrisi metodikası". Bakı,"ADPU" mətbəəsi, 2006, 273 səh

ABSTRACT

M.Rajabov

Algebra training courses and analysis of new information technologies in the application of key trends interdisciplinary relations

The article with the introduction of new information technologies in teaching interdisciplinary courses in algebra and mathematical analysis considered the issue of the relationship.Algebra interdisciplinary courses with the use of mathematical analysis and other detailed knowledge of the fundamental sciences of nature and the deepening humanitarian causes and to use the analogy, repetition, and to gain knowledge to overcome the high level of quality unveils advantages.With the introduction of new information technologies in teaching and interdisciplinary courses in mathematical analysis and higher algebra relations training in the application of the use of computers, content, methods, tools and forms to be reconsidered. On the other hand, this process is the formation of students' thinking, the growth outlook, the formation of their individual qualities, leads to the development of intelligence, the nature of knowledge, and the other reflects the sciences and humanities.

РЕЗЮМЕ

М.Раджабов

Алгебра курсы и анализ новых информационных технологий в применении ключевых тенденций междисциплинарные отношений

В статье с введением новых информационных технологий в преподавание курсов алгебры и математического анализа междисциплинарных рассмотрел вопрос о взаимосвязи.Математический анализ и алгебра междисциплинарные курсы с применением силы и гуманитарных наук и другими знаниями о точном характере основных причин углубления аналогии использовать для устранения дубликатов преимуществ, таких как высокий уровень знаний в области качества приводит. С введением новых информационных

технологий в обучении и междисциплинарных курсов математического анализа и высшей алгебры отношений подготовки в области применения с использованием компьютеров, содержание, методы, инструменты и формы, чтобы быть пересмотрены. С другой стороны, этот процесс является формирование мышления учащихся, перспективы роста, формирование их личностных качеств, приводит к развитию интеллекта, характера знаний, а другой отражает и гуманитарные науки.

NDU-nun Elmi Şurasının 24 dekabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 05)

Məqaləni çapa təqdim etdi:

ALI TAŞDEMIR
Azərbaycan Memarlıq və İnşaat Universiteti

İSTANBUL CAMI MƏSCIDLƏRININ MEMARLIQ INKIŞAFINDA KLASSIK ÜSLUBUN YERI

Açar sözlər: Osmanlı, Klassik dövr, İstanbul, məscid, Memar Sinan
Keywords: Osmanli, Classic age, Istanbul, Masjid, Memar Sinan
Ключевые слова: Османская, Классический период, Стамбул, мечеть, Зодчий Синан

Fatih Sultan Mehmetin İstanbulu fəth edib Osmanlını şərq və qərbin birləşdiyi nöqtəyə qədər genişləndirməsi ilə dövlət rəhbərliyində şərq və qərbi qucaqlamaq istəyən bir siyasət əhəmiyyət qazandı. Bu sintez axtarışı mədəniyyət incəsənətdə də əks olundu. Şərqli qaynaqlarla yanaşı qərbli qaynaqlardan da (yalnız burada qərb olaraq nəzərdə tutulan Bizansdır, Avropa deyil) bəslənməyə başlanıldı. Bu vəziyyətin ilk nümunəsini, Səlimiyə Məscidinin tikintisinə qədər şah əsər olaraq qəbul edilən Ayasofya Kilsəsinin araşdırılması təşkil edir(14, s.81).

Bu araşdırma istər estetik, istərsə də texniki baxımdan Osmanlı günbəz memarlığının inkişafını sürətləndirmişdir. Bir çoxları tərəfindən XVI əsri Osmanlının ən parlaq dövrü qəbul edirlər. Siyasi sahədəki gəlirlər baxımından bu mühakimənin nə dərəcə doğru olduğu müzakirə edilə bilər, lakin sənət cəhətdən xüsusi Osmanlı memarlığının ən yetkin dövrünü XVI əsrdə yaşamış olduğu danışılmaz bir faktdır(13, s. 160).

Bu vəziyyətin əsas səbəbləri belə sadalana bilər:

a- Sərhədlərin sürətlə genişlənməsinə paralel olaraq abadlıq fəaliyyətləri sürət qazandı beləcə arxitekturada böyük inkişaf baş verdi.

b- XVI əsrdə dövrünün ən böyük güclərindən biri halına gələn Osmanlı buna paralel olaraq mədəni sahədə də ən yetkin dövrünü yaşadı. Özündən əvvəlki mədəniyyətləri sintez etməyi tamamlayaraq öz mədəniyyətini meydana gətirdi.

c- Dövlətin iqtisadi cəhətdən olduqca güclü olması ilə incəsənət işləri dəstəkləndi. Böyük binaların tikintisi memarlığın inkişafı üçün həm məcbur, həm təşviq etdi.

d- Xüsusilə memarlıq sahəsində bir-birini izləyən monumental xüsusiyyətli abidələrə nəzər yetirildikdə bu dövrdəki yaradıcılıq üslubunda sultanın nə qədər təsirli olduğu ortaya çıxır. Sultanlar Osmanlı Dövlətinin böyüklüyünə uyğun, onu memarlıq sahəsində simvolizə edəcək xüsusiyyətlərə sahib əsərlərin inşasında ilk təşəbbüskar oldular. Bu simvolik əsərlərlə sultanlar Allaha bağlılıqlarını bildirərkən bir tərəfdən öz varlıqlarını duyururdular (bu vəziyyətin dəlili ictimai funksiyası olmasına baxmayaraq külliyələrin onu tikdirən sultanın varlığıyla özdəşləşməsi, bu strukturların o sultanın adını daşımasıdır). Bu nəcib və ali məqsədə uyğun olaraq memarlıq sənəti də şah əsərlər yaratmalıydı. Dövrün öndə gələnlərinin də hökmdarın yolunu təqib etməsi arxitekturanın inkişafını sürətləndirdi. Klassik estetik zirvə nöqtəsinə çatdı(14, s.165).

Klassik Osmanlı arxitekturası gündəlik həyatın tələblərini qarşılayacaq strukturlarda ifadəsini tapır. Yəni başqa bir sözlə klassik anlayış dəyişən çağla birlikdə dəyişən gündəlik həyatın ehtiyaclarını erkən dövr sənətinin qarşılayamaması ilə ortaya çıxmışdır. Bu xüsusiyyətinə görə klassik Osmanlı memarlığında tikilinin ən əhəmiyyətli xüsusiyyəti funksionallığıdır. Memarın məqsədi isə funksionallığı azaltmayacaq ölçüdə yaradıcılıq xüsusiyyəti də olan abidələr inşa edə bilməkdir(2, s.79).

Beləliklə Klassik Dövr strukturlarında şişirtmədən qaçınıldı, sadə və tarazlı kompozisiyalar yaradılmağa başlandı. XV əsrdən XVI əsrə qədər olan dövrdə (memarlıq xalqın ehtiyaclarına cavab verən bir vasitə olaraq ələ alınması və xüsusi mülkiyyət anlayışının var olmamasına görə) ictimai strukturlar ilk planda gəlirdi. Yerləşdiyi yerdə, xalqın bütün ehtiyaclarına cavab verəcək strukturlar kompleksi olan külliyələrin inşası sürətini artırdı. Beləliklə həm şəhərləşmə nəzarət altına alınmış oldu, həm də dövlət ictimai öhdəliklərini bir dəfədə yerinə yetirmiş oldu. Həmçinin bu strukturlar vəqflər vasitəsi ilə idarə edildiyinə görə həm dövlətə əlavə yük olmur, həm də strukturu tikdirən bina üzərində haqq iddia edə bilmirdi. Beləliklə də binalar tamamilə xalqın istifadəsinə açıq olurdu(10, s. 274).

Məsələn, klassik anlayışın ortaya çıxdığı ilk abidə olan II Bəyazid Məscidi onun əsəri deyil. Həmçinin Memar Sinanın tikililərində istifadə etdiyi günbəz, yarım günbəz, bir neçə Şərəfəli minarələr, kəmərlər, tonozlar ondan əvvəl dəfələrlə tətbiq olunmuşdur. Sinanın böyüklüyü memarlıq ənənəsinin zəngin təcrübəsini yenidən ələ alıb yeni ölçülər və nisbətlərlə fərqli bir gözəlliyə çatmaq üçün çalışarkən əldə etdiyi müvəffəqiyyətdən qaynaqlanır. O, ölçü və nisbətlər üzərində çalışaraq klassik memarlığın əsas doğrularını aşkara çıxarmış, beləcə "Sinan Məktəbi deyilən anlayış ortaya çıxmışdır(15, s. 39).

1. Üfüqi və şaquli istiqamətdə gözü narahat etməyəcək bir kompleks kompozisiyasına üstünlük verilməsi, kobud və sərt keçidlərin qarşısının alınmağa çalışılması;
2. Abidə elementlərinin ölçülərinin bir tam ədədin qatları olmasına diqqət edilməsi;
3. Şişirdilmiş və ya həssas dekorasiyadan uzaq durulması, bunun yerinə texniki işlərdə həssas və dəqiq olunması;
4. Günbəz dizaynının davamlı inkişaf etdirilməsi;
5. Abidə elementlərinin çox funksiyalı istifadəsi (məsələn Sinanın əsərlərində günbəzə keçid elementi olaraq istifadə olunan mukarnasların sabit günbəzi saxlaması, estetik gözəlliyə uyğun keçid təmin etmək və akustik səsin dağılmadan əks olunmasını təmin etmək funksiyası vardır).
6. Hörgü Karkas texnikasının istifadə edilməsi (Bu ağırlığın kəmərlərə və ayaqlara verilməsini, divarlara heç yük düşməməsini təmin edən, Sinan tərəfindən tapılmış bir texnikadır. Beləliklə divarlar dağılsa belə günbəz ayaqda qalacaq; həm də divarlar incəldilərək tikilinin görünüşünü zərifləşdirəcəkdir.) Sinan üslubu klassik anlayışın standart xəttini əks etdirir. Klassik dövr ərzində Sinan üslubu qorunmuşdur. Bu arxitekturada müxtəlif memarların əsərləri arasındakı fərq onların müxtəlif etnik mənşələrinə deyil, ayrı dövrlərdə yaşamalarından irəli gəlir. Mənşə fərqi ümumi memarlığı fərqli bir xəttə istiqamətləndirməmiş, yerli bir çox abidələrdə belə saray üslubunun ağırlığı müşahidə edilmişdir. Bu memarların dövlətin ən ucqar yerlərinə qədər nüfuz edə bilən təşkilat nizamından qaynaqlanır(3, s.55).

Osmanlı Bəyliyinin bir dünya dövlətinə çevrilməsi dünya tarixi baxımından necə yeni dövrlər açmışsa, eyni hadisə memarlıq sahəsində də yeni və orijinal tikinti kompozisiyaları ilə coğrafi ətraf mühiti də dəyişdirmişdir. Osmanlı arxitekturası, Osmanlı Dövlətinin hər cür tikintini əhatə edən fəaliyyət sahəsinin hamısını ifadə edir. Bu memarlıq dövlətin quruluşundan XVI əsrə qədər ümumiyyətlə Səlcuqlu və Bəyliklər dövrü arxitekturasının xüsusiyyətlərini daşımaqla yanaşı, Osmanlıların bu dövrdə meydana gətirdiyi əsərlər, klassik dövr arxitekturasının inkişafında təsirli rol oynamışdır. Bu dövr, eyni zamanda Osmanlı memarlığının zirvədə olduğu bir dövrdür(22, s.23).

Osmanlı arxitekturası, İslam arxitekturasının ümumi xüsusiyyətlərini daşımaqla yanaşı fərqli bir şəxsiyyətlə meydana çıxdığı qəbul edilməkdədir. Belə ki, bu fərqlilik memarisi ən yaxın sayılan Səlcuqlu əsərləri ilə müqayisədə belə, özünü müəyyən edir. Memarlıq tikililərin forma, üslub, plan və bəzəklərdəki diqqət çəkən xüsusiyyətləri uyğun kompozisiyanı əldə etmiş olması Osmanlı arxitekturasını orijinal və özünəməxsus etməkdədir. Xüsusilə Memar Sinana aid olan arxitektura strukturları o qədər qane edicidir ki, bu dövrə aid nümunəyə yeni bir şey əlavə etmək, hər hansı bir detalı gərəksiz hesab edib çıxartmaq mümkün deyil. Qısaca desək bu dövr strukturlarında hiss edilən şey bütövlük duyğusunun verdiyi məmnuniyyət duyğusudur(11, s. 30-36).

İstanbulun fəthi Osmanlı memarlığının yeni, böyük ölçülü və daha zəngin nümunələr verə bilməsi üçün yeni sahələr açmışdır. Yenə bu dövrdə imperiyanın hər tərəfində, memarlıq tarixində xüsusi və əhəmiyyətli yer tutan arxitektura strukturları ard-arda yüksəlməyə başlamış, Osmanlı coğrafiyasının tarixi mühit və mədəni silueti şəkillənərək müsbət istiqamətdə dəyişmişdir. Topqapı sarayı, Fatih, Bəyazid və Süleymaniyyə külliyələri buna ən gözəl nümunədir. Memarlıqdakı bu inkişaf Qərbi Asiya və Şimali Afrikada Şam, Bağdad, Qahirə və Tunis; Şərqi Avropada Selanik, Belqrad, Budapeşt kimi böyük şəhərləri təsiri altına almışdır(7, s.145).

Klassik dövr Osmanlı Memarlığı, başda məscidlər olmaqla digər strukturlarda da material, plan və bəzək cəhətdən böyük bir oxşarlıq təşkil edir. Tikinti materialı olaraq əsasən daş istifadə olunmuşdur. Göstərişdən uzaq və təsir gücünü kompozisiyasından alan üslub hakimdir. Strukturlar daima günbəz ilə örtülü olub, pəncərələr alt mərtəbələrdə düz, üst mərtəbələrdə kəmərlidir. Qədim daş oyma sənəti yerini, içəri hissədə istifadə olunan çini örtmələr, boyalı bəzək, rəngli şüşələr, ağac işləmələr, hüsn-ü xətt yəni gözəl yazı sənətinin nümunələri almışdır. Sütun başlıqlarda da paxlava və sarkıt motivləri istifadə edilmişdir(8, s. 130).

Yeri gəlmişkən bu dövrdə inşa edilən əsas memarlıq strukturlarından olan məscidlərin üslub və formalarından qısaca bəhs etmək istəyirik. Osmanlı məscidlərində minarə nizamı, iki və dörd minarəlilər simmetrikidir. Dörd minarə, Süleymaniyə məscidi nümunəsində olduğu kimi əsas kütlənin künclərinə yerləşdirilərkən, yalnız Sultanahmet Məscidində müşahidə edilən altı minarə, əsas kütlə və həyət künclərinə paylanmış vəziyyətdədir. Mərkəzi planlı məscidlərdəki əsas günbəzin, İslamdakı tövhid düşüncəsindən ilhamlanılaraq inşa edilmişdir. Daxili hissələrin bəzənməsində xətt və çinilər əhəmiyyətli yer tutur. Günbəz-məkan əlaqəsinin uyğunluğu əhəmiyyətlidir. Məscidlərdə böyük həyət və şadırvan vardır. Məscidlərin ətrafında tez-tez mədrəsə, aş evi, kitabxana, hamam və s. strukturlardan mütəşəkkil külliyyə inşa edilərdi (16, s.350).

Heç şübhəsiz ki, bu dövr Osmanlı arxitekturasını zirvə nöqtəsinə çatdıran, dövrünə öz damğasını vuran memar Sinan olmuşdur. Əlbəttə ki, Memar Sinandan əvvəl bir çox memar var idi. Ancaq Memar Sinan Səlcuqlulardan bəri gələn təcrübələrdən ən yaxşı şəkildə faydalanaraq, məhsuldar zəkası ilə bunları inkişaf etdirərək yeni və orijinal əsərlər meydana çıxara bilmişdir. Memar Sinanın Osmanlı arxitekturasına gətirdiyi ən əhəmiyyətli yenilik, günbəz-məkan əlaqəsini ən ideal şəkildə ifadə etməsidir. Memar Sinan 1530-cu ildən 1588-ci ildə qədər davam edən uzun məslək həyatı ərzində dövlətin müxtəlif yerlərində məsciddən körpüyə, karvansaradan hamama qədər bir çox sahədə 300-dən çox əsər vermişdir(4, s.315).

Osmanlı arxitekturası ilə əlaqədar bilinməsi lazım olan bir başqa əhəmiyyətli xüsus isə memarların yetişdiyi Hassa memarlar ocağıdır. Bu ocaq, rəsmi tikililərin inşaat və təmirlərini həyata keçirən ən əhəmiyyətli qurumdur. Sarayın ən güclü məktəblərindən olan bu müəssisə, eyni zamanda bir mühəndislik məktəbi sayılır, qabiliyyətli gənclər burada yetişdirilirdi. Memar Sinan, Memar Hayreddin, Sədəfkâr Mehmet Ağa, Memar Davud Ağa, Memar Ayas və s. böyük memarlar bu məktəbin yetirmələridir. Burada təlim-təhsil, usta şagird əlaqəsinə görə olurdu. Bir memar, bu müddətdə tikilinin işləri ilə əlaqədar bir neçə fərqli sənəti də yenə bu məktəbdə öyrənərdi. Təhsil, nəzəri və tətbiqli olurdu(17, s.10-12).

XVIII əsrdən sonra arxitekturada möhtəşəm klassik dövr yerini Lalə Dövrü (1703-1730) ilə yanaşı sürətli bir Avropalaşmaya vermiş; arxitekturada Avropa tərzi Barok və Rokoko üslubu istifadə edilməyə başlanmış və ehtişamlı klassik Osmanlı arxitekturası davam etdirilməmişdir(18, s.190).

Osmanlı Dövlətinin Yüksəlmə dövrünə paralel olaraq inkişaf edən mədəniyyət və incəsənətin qızıl çağına Klassik Dövr deyilməkdədir. Bir çox tədqiqatçı və mədəniyyət tarixçilərinin fikrincə İstanbulun fəthi (1453) ilə başlayıb Lalə Dövrünə qədər (1718) davam etdiyi qəbul edilən Klassik Osmanlı Sənəti içində, şübhəsiz, arxitekturanın əhəmiyyətli yeri vardır. Çünki 1920-ci ildə siyasi ömrünü başa vuran Osmanlı dövlətinin özünü əks etdirir və şəxsiyyətini təmsil edir. Uç qitə üzərində geniş bir əraziyə yayılan və əksəriyyəti dövrümüzə qədər gəlib çatan bu monumental mədəniyyət abidələri, bəzilərinin xüsusi plan və arxitekturası dəyişsə belə "Osmanlı əsəri" olaraq tanınmaqdadırlar(19, s.97).

XV əsrin ortalarında müəyyənləşən Klassik Osmanlı arxitekturası, dövlətin sərhədlərinin ən geniş olduğu XVI əsrdə zirvəyə çatmışdır. Klassik dövr, Fatih Sultan Mehmet (1451-1481), Yavuz Sultan Səlim (1512-1520), Qanuni Sultan Süleyman (1520-1566), Sultan I Əhməd (1603- 1617), Sultan IV Murat (1623-1640) kimi iradəli padşahların Sokullu Mehmet Paşa kimi sadrazamlarla dövlət rəhbərliyində təsirli digər vəzifəlilərin, alimlərin, sərkərdələrin və qazıların ləyaqətli şəxslərdən meydana gəldiyi bir dövrdür(12, s. 195).

Dövlətin sərhədləri Ərəb Yarımadası və Yaxın Şərqdən Qafqazlara Krım, Polşa və bütün Balkanlar üzərindən Serbiyaya, Şimali Afrika sahillərindən Atlantik Okeanına qədər uzanmış, dövlət iqtisadiyyatı, ictimai və mədəni baxımdan ən zəngin nöqtəyə çatmışdır. Bu geniş torpaqların idarəsi üçün mərkəzə bağlı güclü təşkilatlar qurulmuş içində yaşayan çox sayda etnik qrupa mənsub insanlara xüsusiyyətlərinə görə vəzifə və öhdəlik verilmişdir. Hər nə qədər hökmdar mütləq söz sahibi olsa da mərkəzi idarəetmə ümumiyyətlə ədalət və insan hüquqlarına hörmət üzərində qurulmuşdur. Bu müsbət material sayəsində Barbaros Hayreddin, Sokullu Mehmet Paşalar, Memar Sinanlar, şəxsiyyəti bilinməyən çini ustaları, xəttatlar, nəqqaşlar bu dövrdə yetişmiş, çox sayda memarlıq əsər bu dövrdə ortaya qoyulmuşdur. İdarə edənlə idarə edilən arasında ortaq bir məxrəc meydana gəlmiş Yaradanı razı etmənin qul haqqını qorumaqdan keçdiyi inancı və davranışı çox vaxt mərkəzi idarəni yönləndirmişdir. Mindən çox mədəniyyət nümunəsi ilə bunları ortaya qoyan memarlıq anlayışını, hazırlayıb tətbiq edən qədər memar, usta və sənətkarı qısa bir çalışma ilə dilə gətirmək, əlbəttə, bəzi məhdudiyyətləri özü ilə gətirmişdir. Bu yazıda, Klassik Osmanlı arxitekturası, aparılan işlər əsasında nümunələri ilə yanaşı qısaca nəzərdən keçiriləcəkdir(20, s.28).

Mühiti hazırlayan faktorlarla dövr əvvəli memarlıq anlayışı və Klassik Osmanlı memarlığının əsas xüsusiyyətləri üzərində dayanılıb dövrün memarlarına toxunulacaq, memarlığı əmələ gətirən struktur qrupları əsas başlıqlar altında təqdim edilməyə çalışılacaqdır. Sinan və əsərləri, bu tədqiqatda ayrı bir mövzu başlığı altında təqdim ediləcəyinə görə, burada yalnız digər dövr və strukturlarla bağlı abidələr üzərində dayanılacaqdır (5, s. 221).

Klassik Osmanlı arxitekturasına zəmin hazırlayan əsl inkişaf Sultan II. Murat dövründə baş vermişdir. Ankara müharibəsindən sonra yalnız Anadolunun deyil, bütün Türk və İslam ölkələrinin tək bayraq altında birləşməsi lazım olduğuna inanan II Murat, böyük dövlət olma idealını hər sahədə tətbiq etmişdir. Arxitekturada, atası Çələbi Mehmetin ölümü üzərində yarımçıq qalan Yaşıl Külliyyəni tamamlamaqla işə başlamış, Bursa və Ədirnədə çox sayda əsər inşa etdirərək mütərəqqilik fəaliyyətlərini paytaxta layiq bir şəkildə davam etdirmişdir.

Ədirnədə tikdirdiyi Üç Şərəfəli Məscid (1437-1447), Klassik Osmanlı arxitekturasının ilk xəbərçisidir. Əsası Artuklular mehrab önü günbəzli yatıq (eninə) düzbucaqlı planlı məscidləri ilə Manisa Ulu Məscidinə qədər uzanan Üç Şərəfəli Məsciddə, əsas kütləni örtən günbəz yanlara doğru daha kiçik iki günbəzlə genişlədilərək mərkəzi plan sxeminə doğru yeni bir addım atılmışdır. Mərkəzi günbəz ikisi müstəqil olan altı ayaq üzərində oturdulmuşdur. Digər tərəfdən harimlə inteqrasiya olunan qapalı daxili həyət, biri üç Şərəfəli dörd minarə olaraq bu tarixə qədərki Osmanlı arxitekturasında görülməyən ilklərə imza atılmışdır. Daha əvvəl Tirede inşa edilən imarət məscidində (1441) mehrab qarşısını örtən və günbəzlə inteqrasiya olunan yarımçıq günbəz isə, mərkəzi plan sxemini hazırlayarkən, Osmanlı arxitekturasının yalnız Ayasofyanı nümunə almadığını, öz təcrübələri ilə də bir axtarış içində olduğunu göstərməkdədir(1, s.485).(Şəkil 1)



Şəkil 2 Üç Şərəfəli Cami Planı

Klassik Osmanlı arxitekturası, şübhəsiz, universal ölçüdə xüsusi bir mədəniyyət hadisəsidir. Osmanlı memarları, fərqli coğrafiyalardakı mədəniyyət abidələrinin kənarında, öz ü kimlərini də aşaraq yeni bir üslub ortaya qoymuşlar. Monumental ölçüdəki arxitektura əsərləri çoxaldıqca şəhərlərin quruluşu və görünüşü də dəyişmiş, XV əsrə qədər fərqli mənsubiyyətə aid məskunlaşma mərkəzləri artıq bir "Osmanlı şəhəri" halına gəlmişdir. Bu dövrdə xüsusi şəhər planlaması yerinə, məhəllə forması, külliyyə və ya digər memarlıq abidələrinə görə formalaşdırılmışdır. Klassik dövr Osmanlı əsərlərində meydan və prospektlərə açılan monumental ölçüdə fasadlar yox idi. Çox uzaqdan diqqəti çəkdikləri halda, məhəllə içində görünüşləri həyət divarı ilə gizlədilmişdir. Klassik arxitektura dizaynında ölçü, nisbət və üslub fərqlilikləri olsa da, erkən Osmanlı dövründə formalaşan mədrəsə, hamam, xan, bedestan kimi ictimai strukturların sxemlərindən asılı qalınmışdır. Ancaq məscidlərdə sərbəst şəkildə dəyişiklik aparıla bilinmişdir. Memar Sinanın eyni plan qrupundakı məscidlərində belə yeni ünsür və ya detalda dəyişiklik görülür. Ancaq klassik arxitektura strukturlarında homogenlik və kompleks içində daima üslub birliyi mövcuddur(21, s.169)

Dini arxitekturada harim məkanın üfüqi istiqamətdə genişləndirməkdən daha çox şaquli istiqamətdə kompleks olaraq ələ alma səyi hakimdir. Böyük proqramlı strukturlarda günbəz ortada kvadrat, altı və ya səkkizbucaqlı ayaq və kəmərlər üzərində oturdulmuşdur. Qalan hissələr günbəzə bağlı yarım və dörddə bir günbəzlərlə kiçik künc günbəzlərindən əmələ gələn örtü sistemi ilə bağlanılaraq mərkəzi plan sxemi hazırlanmışdır. Bu örtü forması İslam yaradıcılığında geniş olaraq yalnız Osmanlı arxitekturasında istifadə edilmişdir. Klassik dövrdə məscidlərdə ayaq və kəmərlər üzərində oturan günbəzli orta məkan, həndəsi dizaynında tikilinin modulunu meydana gətirirdi. Mərkəzi plan sxemində xarici arxitekturada günbəz aləmində nöqtələnən pilləli və piramidal fantaziya izlənərkən, daxili arxitekturada dinclik verən sərhədsiz məkan təsiri təmin edilmişdir(21, s. 58).

Klassik arxitekturada infrastruktur düz, örtü sistemi əyri xətlərdən meydana gəlməkdədir.

Ancaq Qərbliləşmə dövründə struktur elementlərində əyrilmə və dalğalanmalar meydana gəlmişdir. Örtüdə ən çox günbəz istifadə edildiyindən, Osmanlı arxitekturası "günbəz arxitekturası" ilə eyniləşdirilmişdir. Osmanlı arxitekturası inkişafının son zirvə nöqtəsinə Memar Sinan əliylə çatmış, Sinan sonrasında Qərb təsirləri xaricində klassik üslubda heç bir irəliyə doğru sınaq həyata keçirilməmişdir(6, s. 48).

Cami və Məscidlər Külliyələrdəki böyük proqramlı məscidlərin xaricində ölkənin müxtəlif bölgələrində klassik memarlıq üslubu ilə çoxlu cami və məscidlər inşa edilmişdir. Ümumiyyətlə, quruluş dövründə ortaya çıxan və zaman keçdikcə inkişaf etdirilən plan sxemləri istifadə edilmişdir. Memarlıq və mədəniyyət tarixi araşdırmalarında tək günbəzli məscidlər adı altında araşdırılan strukturlar, bəlkə də tətbiq olunması asan, iqtisadi külfəti daha az olduğu üçün, xüsusilə, əyalətlərdə ilk sırada üstünlük verilmişdir. Fatih dövründə sayı 85-ə çatan bu əsərlər, quruluş dövrlərindəki kimi, üzəri tək günbəzlə örtülü kvadrat harim məkanı ilə girişindəki son camaat yerindən ibarətdirlər. Çoxunun şimal-qərb küncündən yüksələn tək Şərəfəli minarəsi vardır. Simvolik funksiya verilən minarələr uzaqlardan diqqəti çəkəcək şəkildə, məscid kütləsinə nisbətən daha uzun nəzərdə tutulmuş və ağ kəsmə daşdan inşa edilmişdir. Sinana qədər əksəriyyətində son camaat yeri revak kəmərlərindən etibarən yüksəldilərək üç açıqlığı olan dəbdəbəli bir fasad düzəldilmişdir(21, s. 71).

Klassik Osmanlı arxitekturasında ən ideal məkan forması mərkəzi plan sxemi ilə əldə edilmişdir. İstanbul Köhnə Fatih və Eyüp Sultan camilərində görülən tək yarım günbəzli mərkəzi plan sxeminə, Atina Fethiye (XV əsrin. ortası), Hacı Həmzə az Sinan Paşa (1507) məscidləri kimi dörd yarım günbəzlilər də əlavə olunaraq inkişaf prosesinə daxildir. Memar Sinanla ideal ölçülərə çatan bu məkan və örtü sistemi daha çox böyük kompleksli strukturlarda tətbiq edilmişdir (9, s. 351).

Nəticə olaraq bunları deyə bilərik ki, klassik dövr Osmanlı arxitekturası çağına damğasını vurmuş, Afrikadan Avropaya, Orta şərqdən Balkanlara qədər imperiya ərazilərini bəzəmişdir. Lakin bu memarlıq anlayışı XVIII əsrdən etibarən Qərbliləşmə ilə yanaşı təqlidçi bir zehniyyətə çevrilmiş, yeni addımlara cəhd edilməyərək özünə xas xüsusiyyətlərini itirməyə başlamışdır.

ƏDƏBIYYAT

1. Acun, H. "Manisa'daki Türbe Mimarisi" // *Belleten, XLIX (195), 479-501,* Ankara 1985
2. Akpolat, M. S. "Tanzimat Sonrası Osmanlı Mimarlığından Bir Kesit: Adana - Mersin Demiryolu İstasyon Binaları"// *Hacettepe Üniversitesi Edebiyat Fakültesi Dergisi, 21 (1), 77-93,* Ankara 2004
3. Aksu, Hüsamettin. *İstanbul yapılarındaki bazı dekoratif Kûfî hatlar*. Eray Tanıtım, 2001, 80 s.
4. Anhegger, R. "Mostar Köprüsü ve Mimar Hayrettin". / *IV. Türk Tarih Kongresi (Ankara, 10-14 Kasım 1948),* 312-317. Ankara 1952 .
5. Arayan, H. "Mimar Sinan'ın Yaptığı İlk Eser". // *Tarih Hazinesi, (5), 221-222*, İstanbul 1950
6. Arık, R. Anadolu'da Üç Ahşap Cami Batılılaşma Dönemi Türk Mimarisi Örneklerinden. // Ankara Üniversitesi Dil Ve Tarih Coğrafya Fakültesi Yayınları, Ankara 1973, 68 s.
7. Aslanapa, O. "Fatih Zamanındaki Mimari Eserler". // *İstanbul Armağanı, Fetih ve Fatih*, 143-153 s. İstanbul 1995.
8. Ateş, İ. Mimar Sinan Vakfı. İstanbul: Türk Dünyası Araştırmaları Vakfı 1990, 134 s.
9. Ayverdi, E. H. Osmanlı Mimarisinde Fatih Devri(1451-1481). İstanbul: Baha Matbaası 1973. 398 s.

10. Cerasi, M. M. Osmanlı Kenti Osmanlı İmparatorluğu'nda 18. ve 19. Yüzyıllarda Kent Uygarlığı ve Mimarisi. İstanbul: Yapı Kredi Yayınları. 2001, 376 s.
11. Cezar, Y. "16. Yüzyıl'da Osmanlı Devleti'nin Sosyo-Ekonomik Tarihi ve Mimar Sinan". // *Tarih ve Toplum 1984, 11 (62), 30-36,*
12. Cezar, Y. "Onaltıncı Yüzyılda Osmanlı Devletinin Sosyo-Ekonomik Tarihi Ve Mimar Sinan". // *Toplumsal Tarih Dergisi 1989, (11), 30-36,*
13. Dündar, A. "Osmanlı Mimarisinde Şehir Mimarları". // Osmanlı-,Kültür ve Sanat, 227-236. Ankara: Yeni Türkiye Yayınları 1999.
14. Eyice, S. "Atik Ali Paşa Camiinin Türk Mimarî Tarihindeki Yeri (8 Levha)". // İstanbul Üniversitesi Edebiyat Fakültesi Tarih Dergisi 1964, 14 (19), 99-114,
15. Gönülal Ö. "Osmanlı Toplumunda Mimarın Yeri". // Anadolu Üniversitesi Fen Edebiyat Fakültesi Dergisi 1988, 2 (1), 225-241,
16. Mümtaz Semih. *Eski İstanbul Konakları*. İstanbul: Kurtuba Kitap 2012, 176 s.
17. Öcal O. "Osmanlı İmparatorluğu Yükselme Devri'nin İmar Faaliyetleri. Mimar Sinan, Kişiliği ve Başlıca Eserleri, Osmanlı Vakıfları".// *Askeri Tarih Bülteni 1976, 5 (10), 89-97,*
18. Önge Y. "Osmanlı Mimarisinde Boyalı Taş Tezyinatı". *Önasya 1965, 6 (67-68), 8-10,*
19. Önge Y. "Mimar Sinan'ın Şadırvanları". // *Mimar Sinan Dönemi Türk Mimarlığı ve Sanatı*, 189-197. İstanbul: Türkiye İş Bankası Yayınları 1988.
20. Sönmez Z. (1989). "Sultan Ahmet Camii ve Mimar Sedefkar Mehmet Ağa". // *Kültür ve Sanat 1989, 1 (1), 38-45,*
21. Tümer Gürhan. "Banarlı, İstanbul ve Mimarlık." // *Mimar.ist* 6, no. 20 (Haziran 2006): 23–30.
22. - Ülgen A. "Türk Mimarisinde Minarenin Gelişimi". // *Prof. Dr. Hakkı Dursun Yıldız Armağanı*, 495-508. Ankara: 1995.

ABSTRACT

Ali Tashdemir

The place of classic style in the architectural development of masjids of Istanbul Jami

Classic Osmanli architecture is special in the meeting daily life requirements. In other words, classic conception appeared because of the early age art did not meet the requirements of speedy changing life. For those peculiarities in the classic Osmanli architecture the functionality is the most important peculiarity of buildings. The first memory of classic conception is the II Bayazid Masjid. Osmanli Architecture of the classic age, mainly in masjids and in other structures there can seem the similarities in materials, plans and in decorations. As the main construction materials used from stones in the buildings. The structures were always covered with the domes, the windows built in the down stairs, and upstairs were with the conduits. The ancient stone sculptural art was replaced with the porcelains covers, coloured decorations, coloured glasses, wooden decorations, and decorated with the manuscript it means, replaced with the beautiful writing samples. Infrastructure in the classic architecture discovered with the straight and, askew lines. But in the periods of inclination towards the West appeared the askew and wave lines in the structure. In the covers used from domes and so that the Osmanli architecture identified with the "Domes architecture".

РЕЗЮМЕ

Али Таштемир

**Место классического стиля в развитии архитектуры
Стамбульских Джами-мечетей**

Классическая Османская архитектура выражалась в структурах, удовлетворявших требования повседневной жизни. Иными словами, понятие классического стиля возникло в результате неспособности зодческого искусства раннего периода удовлетворять повседневные нужды, меняющиеся наряду с происходящими изменениями. Наиболее значимая особенность зданий, построенных в стиле классической Османской архитектуры – функциональность. Первый памятник классического стиля архитектуры -это Мечеть султана Баязида II. Образцы Османской архитектуры классического периода аналогичны с точки зрения плана, отделки и использованных материалов. В основном в качестве строительных материалов использовались камни. Господствовал стиль, характеризующейся отсутствием вычурности и силой воздействия. Структуры всегда состояли из куполов, на нижних этажах окна были прямые, а на верхних – опоясанные. На смену древнему искусству резьбы по камню пришли фарфоровые покрытия, используемые во внутренней части здания, красочные отделки, цветные стекла, деревянные изделия, образцы каллиграфии. В классической архитектуре присутствовала прямая инфраструктура, в системе покрытия использовались кривые линии. Лишь в эпоху господства прозападных тенденций в структурных элементах стали появляться кривизна и волнистость. Так как при покрытии мечетей в основном использовались купола, то Османская архитектура отождествлялась с «купольной архитектурой».

NDU-nun Elmi Şurasının 24 dekabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 05)

Məqaləni çapa təqdim etdi:

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2015, № 5 (73)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2015, № 5 (73)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2015, № 5 (73)**

İHSAN GÖKCEN

AMİU

Açar sözlər: *Anadolu, Səlcuq, şəhərsalma, idarəetmə*

Keywords: *Anatolia, Seljuk, city building, administrative.*

Ключевые слова: *Анадолу, Сельджук, градостроение, управление*

Anadoluda Səlcuq şəhərlərinin formalaşmasında tətbiq olunan şəhərsalma üsulları

Açar Sözlər: Anadolu, Səlcuq, şəhərsalma, idarəetmə

Giriş, Anadolu Səlcuqların min ilə yaxınlaşan tarixinə baxmayaraq abidələri və o cümlədən şəhərləri hələ də ayaqdadır. Burada tətbiq olunan üsul və formalar tədqiqatçıların marağını cəlb edir. Anadolu şəhərlərində aparılmış tədqiqatın nəticəsi olaraq Anadolu Səlcuq şəhərlərinin funksiyaları və buna uyğun olaraq Səlcuq şəhərsalmasının aşağıdakı tətbiqi üsullarını qeyd edə bilərik.

1. İdarəetmə mərkəzləri.

Səlcuqlu dövründə Anadolu torpaqlarının, Orta Asiya dövlətçilik ənənələrinə əsasən ulus sisteminə uyğun olaraq xanədan üzvləri arasında alt rəhbərlik mərkəzlərinə ayrıldığı deyilə bilər. Yəni siyasi baxımdan paytaxt Konya rəhbərliyinə tabe olmaqla birlikdə muxtariyyət sistemində bəzi Səlcuq məliklik mərkəzləri vardır. Bu məlumat Səlcuq dövründə bəzi şəhərlərin inzibati mərkəz funksiyasını yerinə yetirdiyini bilməmiz baxımdan əhəmiyyətlidir. Bu mərkəzlər arasında; Aksaray, Amasya, Ankara, Əlbistan, Ərəğli, Kayseri Koyulhisar, Malatya, Niğde, Sivas, Tokat və Uluborlu qeyd etmək olar [4, s. 213-259].

Şəkil 1 Səlcuq dövrü Ankara qalası və şəhristanı (Rijksmuseum-Hollandiya)

2. Hərbi mərkəzlər.

Səlcuq dövründə tikilən Konya, Alanya və Sinop qalalarının kitabələrində şəhərlərin funksional xüsusiyyətlərini əks etdirən əhəmiyyətli məlumatlar yerləşir. Bu kitabələrdə qeyd edilən, fəth sonrasındakı abadlıq fəaliyyətləri ilə qalanın inşasına aid məlumatlardan hərbi-strateji mərkəz funksiyasını görmək olar. Səlcuqların Orta Asiyada qurduqları hərbi şəhərlər Anadoluda da bənzər şəkildə formalaşdırılmışdır. Bu baxımdan, aparılmış təhlillər göstərir ki, bu dövrdə hərbi mərkəzlər üç fərqli şəkildə qurulmuşdur:

Bunlardan birincisi subaşılıq mərkəzləri kimi tanınır və subaşı termini Səlcuq ordusundakı komandirlərin ümumi adıdır. Səlcuqlu dövründə Anadolu şəhərlərinə verilən ünvanlar və müəyyən sayda daim hərbi qüvvə saxlanılan və subaşılıq mərkəzləri olaraq bilinən şəhərlər Kayseri-Darul fəth, Aksaray-Dârüz zəfər, Ankara-Darul hisni, Niğde-Darul pəhləvan, Alanya-Darul eman kimi sıralana bilər [2, s. 421-446].

İkinci hərbi formalı şəhər tipi Dərbənddir. Əslində ticarət mərkəzi funksiyasına sahib kimi görünsə də dərbəndlər müdafiə qalaları olaraq Səlcuq şəhərsalma sisteminə daxil edilmişdir. Akça Dərbənd, Yunus Dərbəndi və Göksu Dərbəndi həmin bu funksiyaya aid edilirlər [1, s. 125-135].

Səlcuqların Anadoluda şəhərsalma və nəqliyyat sisteminin strateji keçid nöqtələrində, sarp və əlçatmaz qayalıqlar üzərinə inşa etdikləri üçüncü tipli şəhərlər qarahisarlar, Roma-Bizans dövründən miras olan Castro (qala şəhərlər) xüsusiyyətindəki yerləşmələr idi. Anadolu müdafiə sisteminin hərbi və strateji baxımdan hərəkat mərkəzi kimi istifadə olduqları təyin olunmuşdur. Bu yerləşmələr arasında qarahisarı təkə, qarahisarı dəvəli, qarahisarı osmancık sayıla bilir.

3. İstehsal və ticarət mərkəzləri.

Səlcuq hakimiyyətindəki Anadolu torpaqlarında, beynəlxalq ticarətə və nəqliyyat sisteminə bağlı olaraq dəniz, çay və ya dağ silsilələri kimi coğrafi və siyasi sərhəd nöqtələrində, ümumiyyətlə şəhər yerləşmələrinə uzaq geniş səhralarda, kənd təsərrüfatı məhsulları və sənətkarlıq məhsullarının ticarətinin edildiyi bazar və yarmarkalar qurulmağa başlanmışdır. Bazar və yarmarkaların coğrafi mövqe üstünlükləri, təbii sərvətlərin çoxluğu ya da nəqliyyat imkanlarına görə formalaşmışdır. Bu şəkildə ilkin olaraq müvəqqəti yerləşmələr xüsusiyyətindəki bazar və yarmarkalar, bir müddət sonra beynəlxalq və regional ticarət potensialına söykənən ticarət mərkəzlərinə çevrilmişdir. Anadolu Səlcuqlarında Yabanlu yarmarkası, Ziyarət bazarı, Alameddini bazarı kimi bazar və yarmarka yerləşmələrinin varlığını göstərmək mümkündür. Bu dövrə aid digər iqtisadi yerləşmələri mədənçilik mərkəzləri kimi qiymətləndirmək mümkündür. Bu yerləşmələr arasında Bayburt, Gümüşxana, Mədənbazar yerləşmələri sayıla bilər.

Səlcuqlu dövründə dəniz ticarəti də inkişaf etmişdi. Xüsusilə Aralıq dənizi və Qara dəniz sahillərindəki liman şəhərlərinin ticarətdə əhəmiyyətli rol aldıqlarını söyləmək mümkündür. Aralıq dənizi sahilindəki Antalya ilə Qaradəniz sahilindəki Sinop limanları müsəlman, xristian və yəhudi tacirlərin mərkəzi sayılırdı. Səlcuqlar tərəfindən inşa edilən dar-us-sına (liman) və zəngin meşə ticarəti nəticəsində gəmi istehsal mərkəzləri bu şəhərlərdə yerləşirdi [3, s. 69-77].

4. Mədəniyyət mərkəzləri.

Səlcuqlu dövründə şeyx və dərviş kimi dini liderlər təkkə və zaviyə deyilən məkanlarda fəaliyyət göstərərdilər. Bunlar, Səlcuqlu dövründə Orta Asiyadan Anadoluya gələn Hacı Bektaş Vəli kimi şeyx və dərvişlərin, Anadolu-Türk şəhərlərinin məkan formasındakı yeniliklərindən biri idi. Nevşəhər kimi yaşayış yerləri Türk-İslam mədəniyyətinin Anadoludaki təbliğat mərkəzləri funksiyasını boynuna götürmüşdür [8, s. 25].

Anadoluda peşə həmrəylik təşkilatı mərkəzi olaraq Əxilik təşkilatının qurucusu Əxi Əvranın yerləşdiyi Kırşehir, Kızılırmak Vadisində əhəmiyyətli bir Əxilik mərkəzindəki kimi istehsal və sənətkarlıq fəaliyyətlərində ixtisaslaşan tacirlərin mərkəzi funksiyasını qazanmışdır [5, s. 87].

5. Kənd təsərrüfatı mərkəzləri.

Səlcuqların Anadoludan əvvəlki Türk-İslam dövlət ənənəsinin təsiri ilə köçəri və yarı köçəri türk tayfalarını siyasi sərhədlərindəki yaylaq və qışlaq sahələrini verərək oturaq həyata istiqamətləndirməsi siyasətini, Anadolunun Türk- İslam hakimiyyət dövründə öz həllini tapmışdır.

Türk fəthləri dövründə Anadoludaki tərk edilmiş kənd və səhra yerlərini bu şəkildə ticari inkişafı mümkün olmuş və bu torpaqlar əkinçilik və heyvandarlıq mərkəzləri kimi istifadə olunmuşdur. Bozok, Üçok, Bayat, Kınık, Kayı, Yürük kimi həm türk tayfalarının adı həm də şəhər adı olan yerlər bu cür mərkəzləşmişdir.

Səlcuqların Anadolunu fəth etmələri ilə Anadoluda olan xristian - Bizans şəhərsalma mədəniyyəti yerli Türk-İslam şəhərsalmasına öhdəsinə buraxmışdır. Bu baxımdan, Səlcuqlar Orta Asiya və İslam mədəniyyətinin təsiri ilə meydana gətirdikləri şəhərsalma prinsiplərini Bizans şəhərsalması ilə sintez edərək Anadolunun özünəməxsus coğrafi şərtlərinə uyğun şəhər modellərini yaratdılar.

Xristian-Bizans şəhərsalma mədəniyyəti mirasının müsəlman Türk xalqlarının ehtiyaclarına və ənənəvi həyat tərzlərinə uyğunlaşdırılması nəticəsində meydana gələn yeni şəhərlər Anadolu-Səlcuq şəhərləri kimi adlanır. Şəhərsalmadakı bu təsirlənmə və sintez olunma Anadolu memarlığına da öz təsirini göstərmişdir. Səlcuq şəhərlərindəki məkanların yeni bir kompozisiya daxilində yerləşdirilməsi şəhərsalmanın memarlığa təsirinin göstəricisidir. Belə ki, Anadolu Səlcuq şəhərləri məscidlərin mərkəzdə yerləşdirilməsi və şəhərin məhəllələrə ayrılması ilə formalaşdırılmışdır. Bunun yanında qala, xəndək kimi müdafiə qurğuları Səlcuq mədəniyyətinin təsiri ilə şəhərlərə yerləşdirilmiş və qədim Bizans şəhərləri Səlcuq şəhərsalma anlayışına əsasən tezdən həll edilmişdir.

Mənbələrə əsasən erkən dövr Səlcuq şəhərlərinin qapalı şəhər kimi tanınan qala şəhərlər olduğu məlumdur. Məsələn, Ələəddin Keyqubat (1220-1237) dövründə beynəlxalq ticarətdəki inkişafla bağlı olaraq Konya, Kayseri, Sivas və Ərzincan şəhərlərinin Bizans dövründəki mövcud qalaların kənara çıxması ilə yeni bir qala ilə əhatə olunması bizə qapalı şəhər tipinin geniş istifadəsini bildirir [6, s. 99-100].

İlkin dövrlərdə Səlcuqların qapalı şəhər sistemini mənimsəməsində şübhəsiz Monqol təhdidinin də təsirli olmuşdur. Səlcuqlarda qala xaricində yerləşmələr XII əsrin axırında qurulmaya başlanılsa da ancaq XIII əsrin axırlarında qala xaricində əhəmiyyətli abidələrin tikilməsinin şahidi oluruq. Buna misal Konya Sahib Ata məqbərəsi (1283) və Ankara Arslanxana məscidi (1290) kimi nümunələri sadalamaq olar. Ancaq Anadolu Səlcuq şəhərlərinin hamısı qapalı şəhər kimi formalaşırdı demək də düzgün deyildir. Anadolu Səlcuqlarına aid Danişmənt (Kayseri mərkəz olmaqla) əyaləti kimi bölgələrdə cəmiyyətin həyat tərzinə, ərazi şərtlərinə və təhlükəsizliyə bağlı səbəblərə görə fərqli tipologiyalarda şəhərlərdə formalaşmışdı.

Zaman keçdikcə Anadoluda siyasi sabitliyin təmin edilməsi, beynəlxalq ticarətin inkişafı, Türk tayfalarının Aandoluya köçləri və şəhərlərin ətraf mühitində məskunlaşmaları qala daxilində şəhərlərin sıxlaşmasını və qala xaricinə çıxmasına səbəb olmuşdur. Qala xaricinə tikilən böyük məscidlərin ətrafına yerləşən xalq, yeni məhəllələr quraraq şəhərlərin sistemli bir şəkildə böyüməsinə imkan yaratdı. Beləliklə, Türk-İslam şəhərlərinin qədim formaları Anadolu şəhərlərində də eynilə görülməyə başlanıldı. Yuxarıdakı araşdırmalara əsasən Anadolu-Türk şəhərsalmasında qapalı, açıq və uc (sərhəd) şəhər olmaqla üç tipologiya bölmək olar;

1. Qapalı şəhərsalma sistemi. Qapalı şəhərlər dedikdə ətrafı qala ilə əhatə olunmuş şəhərlər başa düşülür. İlkin dövrlərdə Anadolu Səlcuq şəhərləri Bizansdan miras qalan və Castron adlana qalalarda yerləşirdi. Əhalinin çoxalması nəticəsində inkişaf edən bəzi şəhərlərin mövcud qalaların kənarına çıxması ilə Bizansdan qalan bu sistem dağıldı. Ancaq qalaların içindəki yerləşmə olduğu kimi saxlanıldı və qala idarəetmə mərkəzi halını aldı. Bu baxımdan, Konya, Kayseri və Ərzurum kimi şəhərlər bu şəhərsalma sisteminə aid edilir. Beynəlxalq ticarətin və idarəetmənin mərkəzi olan bu şəhərlər Orta Asiyadan sonradan gələn Türk tayfalarının məskəni halını aldı.

Digər tərəfdən sərt qayalar üzərində qurulan və qarahisar adlanan bəzi şəhərlər

Anadolu Səlcuq dövlətinin axırına kimi qapalı qala şəhərlər olaraq qalmışdır. İscə qarahisar və Osmancıq qarahisarı bu tipli şəhərlərin nümunələridir. Sahil şəhərləri olan Sinop, Antalya və Alanya da Səlcuqlar dövründə qapalı şəhər formalarını qoruyub saxladılar. Bu şəhərlər dəniz ticarət mərkəzləri olsalar da coğrafi şərtlər qala xaricində şəhər salınmasına imkan verməmişdir.

2. Açıq şəhərsalma sistemi. Qırşəhər (Kırşehir), Ziyarət Bazarı və Yabanlu Bazar kimi beynəlxalq yolların coğrafi keçid nöqtələrində ticarət və qonaqlama məqsədi ilə qurulan şəhərlər açıq şəhərlər olaraq adlanır. Bu şəhərlərdə ortaq xüsusiyyət çoxlu karvansaraların olmasıdır.

Açıq şəhərsalma tipologiyasına bir də castron adlanan və Bizansdan miras qalan qala-şəhərlərdəki qalaların tamam dağıdılması ilə qurulan şəhərləri daxil etmək mümkündür. Amasiya və Tokat şəhərləri fiziki inkişafla bağlı olaraq qala daxilinə yerləşməmiş və qala divarları xaricinə daşmışdır. Bu şəhərlərə də hərbi təhlükəsizliyin təmin edilməsində qalanın əhəmiyyətini itirməsi ilə qala divarları dağıdılmış və həmin şəhərlər açıq şəhərsalma modelinə görə formalaşdırılmışdır.

3. Uc (sərhəd) şəhərsalma sistemi. Uc şəhərsalma modelində bir şəhər daxilində iki şəhər yerləşirdi. Bir tərəfdə Bizans qalalarının yerləşdiyi qədim şəhər, digər tərəfdə isə köçəri həyatı tərk edərək qala divarları xaricindəki bir nöqtədə oturaq həyatı mənimsəmiş əhalisi Türk tayfalarından ibarət təzə şəhərdir. Uc şəhərlərində iki fərqli etnik və dini xalq vardır və bu iki xalq ticarət vasitəsi ilə əlaqə də qururdular. Şəhərin ticarət mərkəzində yaşayan bizanslılar qala şəhərin içində yerləşmişdilər. Türk əhali kənd təsərrüfatı və heyvandarlıq məhsullarını bu bazarlarda satmaqla həyatlarını davam etdirərdilər. Ankara, Əskişəhər və Kütahya kimi şəhərlər Anadolu Səlcuqlarında uc şəhərsalma modelində formalaşan şəhərlərə daxildirlər [7, s.129].

Nəticə, Anadoluda siyasi sabitliyin təmin edilməsi, beynəlxalq ticarətin inkişafı, Türk tayfalarının Anadoluya köçləri və şəhərlərin ətraf mühitində məskunlaşmaları qala daxilində şəhərlərin sıxlaşmasını və qala xaricinə çıxmasına səbəb olmuşdur. Qala xaricinə tikilən böyük məscidlərin ətrafına yerləşən xalq, yeni məhəllələr quraraq şəhərlərin sistemli bir şəkildə böyüməsinə imkan yaratdı. Beləliklə, Türk-İslam şəhərlərinin qədim formaları Anadolu şəhərlərində də eynilə görülməyə başlanıldı. Yuxarıdakı araşdırmalara əsasən Anadolu-Türk şəhərsalmasına aid olan qapalı, açıq və uc (sərhəd) şəhər olmaqla üç tipologiya haqqında geniş məlumat verildi.

ƏDƏBIYYAT

1. 24 Aksarayî. Anadolu Selçuki Devletleri Tarihi. Ankara: Recep Ulusoğlu Yayınevi, 1943, 374 s.
2. 36 Artuk İ. ve Artuk C. Bazı İslâm Şehirlerinde Hangi Devletler Sikke Kesmiş ve Bu Şehirlere Ne Gibi İsimler Verilmiş. TTK Belleteni LXVII(249), Ankara, 2003, s.419-448.
3. 41 Aslanapa Oktay. Türk Denizciliği ve Selçuklu Tersaneleri, Türk Kültürü 146, 1974, s. 69-77.
4. 80 Cenâbî. Cenâbi'ye Göre Anadolu Selçukluları, İ.Ü. Edebiyat Fakültesi Tarih Dergisi 36, İstanbul, 2000, s. 213-259.
5. 82 Çağatay N. Bir Türk Kurumu Olan Ahilik. TTK Yayınları, Ankara: 1997, 272 s.
6. 119 İbn-i Bibi. El Evamirul Alaiyye Fil Umuril Alaiyye (çev. Mürsel Öztürk) cild I, TTK Yayınları, Ankara: 1996 s. 568.
7. 136 Karpuz Haşim. Konyanın Selçuklu Kent Dokusu ve Son Yıllarda Yok Olan Anıtları. I.

Uluslararası Selçuklu Kültür ve Medeniyeti Kongresi, cilt II, Konya: 2001, s.1-6.
8. 186 Özcan Koray. Anadolu’da Selçuklu Kentler Sistemi Ve Mekânsal Kademelenme (1). METU JFA 2006/2. (23:2). s. 21-61.

ABSTRACT

Ihsan Ergun Gokjen

Applied city building methods in formation of Seljuk’s cities in Anatolia

Instead of Seljuk’s of Anatolia have near thousands years old, their monments and cities exist even at the present-day. Here applied methods and forms have always attracted the researchers’ attention. In the scientific article being as the conclusion of carried out investigations in the cities of Anatolia, we could note applied methods of Seljuk’s city building according to the city building functions of Anatolia’s Seljuk.

РЕЗЮМЕ

Ихсан Гекджен Эргюн оглы

Методы градостроения, использованные в формировании сельджукских городов в Анадолу

Несмотря почти на тысячелетнюю историю Сельджуков в Анадолу, их памятники, в том числе города сохранились по ныне. Использованные здесь методы и формы вызывают исследовательский интерес. По результатам исследования, проведенного в городах Анадолу, можно отметить функции сельджукских городов в Анадолу и в соответствии этому нижеследующие прикладные методы градостроения Сельджуков.

NDU-nun Elmi Şurasının 24 dekabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 05)

Məqaləni çapa təqdim etdi:

METODİKA

SEYFƏDDİN CƏFƏROV
e-mail:Rekmarmara1@gmail.com
Naxçıvan Dövlət Universiteti
AYŞƏ HƏSƏNOVA

UOT:

MƏKTƏB FİZİKA KURSUNUN TƏDRİSİNİN MÜASİR METODOLOJİ ƏSASLARI

Açar sözlər: *Məktəb, fizika, metodologiya*
Key words: *School, physics, methodology*
Ключевые слова: *школа, физика, методология*

Мягалядя цмумтящсил орта мяктябляринин 7-11-ъи синифляри цчцн физикадан йени програм вя дярсликлярин metodoloji əsasları тящлил олунур. Fизика тядрисинин нязяри вя методики мясяляляринин цстцн вя фяргли ъящятляри ачыгланыр.

Ейни заманда физиканын тядрисинин тяшкили вя идаря олмасынıп методоложи имканлары тядгиг олунараг тятбиги йоллары эюстярилир

Texniki-tərəqqinin sürətli inkişafı, siyasi və iqtisadi böhranların yaratdığı qlobal problemlər və bütövlükdə kainatda baş verən kataklizmlər insanların müvafiq nəticələr əldə etmələri üçün səmərəli fəaliyyət istiqamətində təxirəsalınmaz işlərin yerinə yetirilməsini tələb edir.

Cəmiyyət üçüncü minilliyin keçidində ekoloji, sosial və iqtisadi problemlərin həllində təhsilin üstünlüyünü və həlledici rolunu daha yaxından hiss etməyə başlamışdır. Dünyanın inkisaf etmiş ölkələrində təhsilə, onun məzmununa, məqsəd və vəzifələrinə və texnologiyalarına olan münasibətlərə yenidən baxdı. Humanist prinsiplərə söykənən, hərtərəfli inkişaf etmiş sosialyönümlü insanın formalaşdırılmasında təhsilin aparıcı funksiyaya malik olması bir daha əsas şərt kimi müəyyənləşdirildi. Şəxsiyyətin formalaşmasında təkcə bilik, bacarıq, vərdiş, müəyyən fəaliyyətlə bağlı funksional hazırlıq deyil, həm də onun şəxsi keyfiyyətləri: ictimai fəallığı, yaradıcılıq qabiliyyəti, bacarığı və s. xüsusiyyətlərə malik bəşəri insan kimi yetişdirilməsi əsas tələblərdən birinə çevrildi. XX əsrdə görkəmli Amerika psixoloqu D.Dyüi yazırdı: "Uşaq hər şeyin mərkəzi, başlanğıcı və sonudur. Onun şəxsiyyəti və xarakterinin xüsusiyyətləri tədris fənninin məzmunundan daha önəmlidir. Təhsilin kəmiyyət və keyfiyyətini proqram deyil, uşaq müəyyənləşdirməlidir"[1, 9, 11].

Respublikamız müstəqillik qazandıqdan sonra, qarşılaşdığımız problemlərdən biri də təhsilin məqsədlərinin dəyişməsi ilə yanaşı, həm də onun humanist, şəxsiyyətyönümlü konsepsiyaya yönəldilməsi idi. Burada əsas məqsəd və vəzifə gənclərimizin bilik, bacarıq və vərdişlərə yiyələnmələri ilə yanaşı, həm də onların insani, şəxsi keyfiyyətlərinin inkişafı və təsdiqi, sosial və peşəyönümlülüyü, cəmiyyət və dövlət üçün yararlı olunmaları idi.

Bu prinsiplər zaman-zaman öz əksini «Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı»nın əsas müddəalarında, Təhsil Haqqında Azərbaycan Respublikası Qanununda tapdı. Təhsil haqqında dövlət siyasətinin əsas prinsiplərindən olan humanistlik, demokratiklik, bərabərlik, millilik, dünyəvilik və s. məqsədləri həyata keçirməklə yanaşı, Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə, ideyalarına, demokratiya prinsiplərinə, insan hüquqlarına, azadlıqlarına hörmət edən, vətənpərvər və ölkəsinə sadiq olan, müstəqil, yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək kimi vəzifələr müəyyənləşdirildi [2, 9].

Hazırda Azərbaycan özünün təhsil sistemini dünyanın ən qabaqcıl ölkələrinin təhsil sistemlərində bərqarar olan ümumbəşəri dəyərlərdən istifadə etməklə təkmilləşdirir, məzmun və struktur dəyişiklikləri aparır.

Təhsil sahəsində aparılmış islahatların davamı olaraq, fizika elminin tədqiqi və tədrisində, gənc müəllim nəslinin yetişdirilməsində, xüsusi əməyi və təcrübəsi olan professor Mirzəli Murquzovun elmi rəhbərliyi ilə fəaliyyət göstərən işçi qrup 2003-cü ildə, "Ümumtəhsil orta məktəblərinin VII-XI sinifləri üçün fizikadan yeni proqram və dərsliklərin konsepsiyası"nı (Təhsil Nazirliyinin 05.07.2002-ci il tarixli 729 saylı qərarına əsasən təsdiq edilmiş proqrama uyğun olaraq tərtib edilmişdir) hazırlamışdır [6].

Bu konsepsiya uzun illər orta məktəb fizikasının məzmun və strukturunda kök salmış, fiziki hadisə, qanun və nəzəriyyələrin tamlığına və onların şərhində çətinliklər yaradan bir sıra anlaşılmazlıqlara son qoydu, orta məktəblərin fizika proqramlarının, dərsliklərin yeni ideya və məzmunda təkmilləşdirmələrə önəm verdi.

Təqdim olunan yeni proqram indiyədək qüvvədə olan fizika proqramlarından əsaslı şəkildə fərqlənir. Respublikamızda aparılan təhsil islahatının tələblərinə uyğun olaraq proqramın quruluşu, məzmunu əhəmiyyətli dərəcədə yeniləşdirilmiş və elmi səviyyəsi yüksəldilərək inkişaf etmiş ölkələrin tədris proqramlarına uyğunlaşdırılmışdır [7].

Yeni konsepsiyada şəxsiyyətin maraq və ehtiyaclarını, arzu və istəklərini əsas götürməklə təhsil alanların mənafeyinə xidmət göstərilməsi ön plana çəkilmiş, məktəb fizika kursunun quruluşu, məzmunu və tədrisi metodikası aparıcı ideyalar əsasında yeniləşdirilmiş, fizika fənninin elmi səviyyəsi yüksəldilmiş, şagirdlərdə yeni dünyagörüşünün formalaşdırılması və onlara verilən biliklərin keyfiyyətcə artırılması yolları müəyyənləşdirilmişdir. İşçi qrup tərəfindən konsepsiyaya uyğun fizika kursunun dövlət standartı, iki pilləli fizika (birinci pillə 7-9-cu siniflər, ikinci pillə 10-11-ci siniflər üçün) proqramı və 7-11-ci siniflər üçün fizika dərslikləri hazırlanmışdır.

Konsepsiyada təbii proseslərin fiziki mənzərəsi üç əsas ideya əsasında qruplaşdırılmışdır:

- Təbii proseslərin istiqamətliliyi.
- Təbii proseslərin təkrarlanan olması.
- Təbii proseslərin saxlanma ideyaları.

Fizika kursunun məzmununun əsasını 4 müddənın təşkil etdiyi əsaslandırılmışdır:

- bizi əhatə edən aləm qarşılıqlı təsirdədir;
- qarşılıqlı təsir aləminin hərəkət növlərinin vahid ölçüsü enerjidir;
- qarşılıqlı təsir enerjiləri istiqamətlidir və bu istiqamət enerjinin azalması istiqamətinə yönəlmişdir (enerjinin minimumluq şərtinin ödənilməsi);
- bizi əhatə edən aləm qanunauyğunluqlar aləmidir.

Fizikanın müasir dövrdə tədrisinin metodoloji əsasında fiziki nəzəriyyələrin, qanun və hadisələrin dialektik inkişafı və vəhdəti durur. Fizikanın tədrisinin metodoloji əsaslarını aşağıdakı kimi qruplaçdırmaq məqsədəmüvafiq hesab edilmişdir:

1. Materiyanın məkan və zamanın qarşılıqlı təsiri və hərəkətin ilkin fəlsəfi anlayışları kimi formalaşdırılması.

2. Dünyanın dərk edilə bilən olması və dərketmə prosesinin dialektik xarakter daşıması.

3. Dünyanın maddi vəhdəti.

4. Fiziki nəzəriyyələr, qanun və hadisələrin dialektik xarakteri, onların səbəb-nəticə əlaqələrinin obyektivliyi.

5. Maddi aləmin xassələrinin və təzahür formalarının tükənməzliyi, dərketmə prosesinin sonsuzluğu.

Fizikanın tədrisinin əsas təlim vəzifələri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

- fundamental fiziki nəzəriyyələrə, qanunauyğunluqlara dair eksperimental faktlar və elmi praktik nəticələr əsasında fiziki hadisələrin şüurlu mənimsənilməsini təmin etmək üçün şagirdlərə fizikanın əsaslarına (mexanika, molekulyar fizika, istilik, elektrik, işıq hadisələri, atom və atom nüvəsi) aid sistematik biliklər vermək;
- Şagirdləri fizika elminin əsas nəzəri və eksperimental tədqiqat metodları ilə tanış etmək;
- şagirdlərdə insanın əməli fəaliyyətində mühüm əhəmiyyəti olan ölçü cihazları və laboratoriya avadanlıqları ilə işləmək, fizikadan müxtəlif hesablamalar aparmaq üçün eksperimetal və tədqiqi düşüncə bacarıqlarını formalaşdırmaq;
- şagirdlərə fiziki, məişət və təbiət hadisələrini müşahidə və izah etmək, müstəqil biliyə yiyələnmək bacarıqlarını aşılamaq;
- şagirdlərin təfəkkürünü, texniki yaradıcılığını və tədqiqatşılığını müstəqil əmək fəaliyyətində məhsuldar inkişaf etdirməklə, onların bilik keyfiyyətlərinin yüksəldilməsinə və bununla da fənnə marağın artırılmasına nail olmaq;
- fizika elminin və texnikanın inkişafında Azərbaycan və Dünya alimlərinin rolunun aşkar edilməsi ilə şagirdlərin vətənpərvərlik və ümumbəşəri ruhda tərbiyə olunması.

Fizikanın tədrisinin tərbiyəvi məsələləri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

- respublikamızın inkişaf etmiş müstəqil dövlət kimi formalaşmasının maddi-texniki bazasının yaradılmasında fizikanın rolunu müəyyənm edərək, şagirdlərdə elmə, xüsusilə də fizika elminə marağın artırılmasına nail olmaq;
- böyüyən nəslin sağlam, əqidəli, təmiz mənəviyyatlı şəxslər kimi yetişmələrinə yardım etmək;
- ölkəmizin müxtəlif sənaye, kənd təsərrüfatı, energetika, hərbi, kosmonavtika və s. sahələrinin perspektiv istiqamətlərinin inkişaf etdirilməsində fizikanın əhəmiyyətli rolu ilə şagirdləri tanış etməklə, onların gələcəkdə peşə seçimi işinə əməli kömək göstərmək.

Araşdırmalar göstərir ki, yeni konsepsiyaya əsaslanmış ümumtəhsil məktəbinin fizika kursunun proqram və dərslikləri, özündən əvvəlki proqram və dərsliklərlə müqayisədə aşağıdakı əlamətlərinə görə fərqlənir:

- yeni konsepsiyada canlı təbiətə tez-tez müraciət olunmuş, təkamül ideyası əsas götürülərək canlı və cansız təbiətin ən ümumi cəhətlərinə istinad edilmiş, dünyanın vahid fiziki mənzərəsi ön plana çıxarılmamışdır;
- dünyanın müasir təbii-elmi mənzərəsini təsvir etmək üçün onun müxtəlif təzahürlərinin fundamental vəhdəti əsas götürülmüşdür;
- bizi əhatə edən aləm (materiya) mürəkkəblik dərəcəsinə görə fərqlənən müəyyən, ardıcıl quruluş formalarına, obyektlərin əlaqəli sistemlərinə bölünmüşdür;
- mikro obyektdən makro obyektə doğru öyrənilmə prosesi nəzərdə tutulmuş, ən kiçik materiya formasından ən böyük materiya formasına doğru ardıcıllıq müəyyən edilmişdir;

• tədris proqamları, dərsliklər və dərs vəsaitləri elmi məntiqliklə yanaşı tarixilik ideyasına söykənmişdir;

• məkan və zaman, zamanın istiqamətliliyi anlayışları daxil edilmiş, təbiətin fundamental saxlanma qanunlarının fəza-zaman simmetriyası ilə əlaqəli şəkildə öyrənilməsinin təməli qoyulmuşdur;

• təbii proseslərin istiqamətliliyi, dövriliyi və saxlanma qanunları hərəkətin dövriliyi, istiliyin və zamanın istiqamətliliyində öz əksini tapmışdır;

• daxili enerjinin halın, iş və istilik miqdarının isə termodinamik prosesin funksiyası olması, enerjinin istiqamətliliyi və minimumluq prinsipi ideyası əsasında ona uyğun tədris materallarının mərhələlər üzrə aşağıdakı istiqamətdə formalaşdırılması nəzərdə tutulmuşdur:

- molekulların irəliləmə hərəkətlərinin kinetik enerjisi;
- molekulların qarşılıqlı təsirlərinin potensial enerjisi;
-“Termodinamik sistem modeli” çərçivəsində makrocismlərin xassələrinin və istilik hadisələrinin öyrənilməsi;
- İstilik tarazlığı, istilik tutumu və maddənin aqreqat hallarının dəyişməsi;
- atomdakı elektronların nüvə ilə qarşılıqlı təsirlərinin potensial enerjisi və elektronun tam enerjisi;
- nüvə daxili enerji;
- əlaqəli sistemlərdə rabitə enerjisi;
- qravitasiya sahəsindəki cismin potensial enerjisi.

• **orta məktəbin 7-9-cu və 10-11-ci siniflərində biliklər aparıcı didaktik prinsipə-generalizasiya prinsipinə istinad olunur, enerji, sahə, qüvvə, zaman-məkan, hərəkət və digər fundamental anlayışlar həmin prinsipə uyğun məzmunda verilir;**

• ilk dəfə olaraq materiyanın ilk növünün (maddə və sahə) əlaqəli şəkildə öyrənilməsinə şərait yaradılmış, onların ümumi və xüsusi cəhətləri dərsliyə gətirilmişdir;

• “Qravitasiya sahəsi” fəslində ilk dəfə olaraq əsas fiziki kəmiyyətlərdən biri “g” (sərbəstdüşmə təcili)-nin qravitasiya sahəsinin intensivliyi kimi xarakterizə olunması göstərilmişdir; saxlanma qanunları, mexaniki rəqslər və dalğalar, istilik hadisələri və maddənin aqreqat halının dəyişməsi mövzularının “Qravitasiya sahəsi” ideyası əsasında tədris olunması planlaşdırılmışdır;

• yeni konsepsiyada ilk dəfə olaraq elementar yük və onun dünyəvi sabit kimi formalaşdırılması təklif edilmişdir;

• maqnit sahəsinin mənşəyinin daha dərindən öyrənilməsi təklif olunmuş, elektrik və maqnit sahələrinin qarşılıqlı müqayisəsi verilərək, vahid sahə nəzəriyyəsi haqqında ilkin təsəvvürlər formalaşdırılmış, didaktikanın təlimdə vahidlik prinsipi rəhbər tutulmuşdur;

• “Elektromaqnit sahəsi” mövzusu altında 7-9-cu siniflər üçün yeni olan bəzi mühüm məsələlər: elektromaqnit sahəsi, elektromaqnit dalğaları, elektromaqnit dalğaları şkalası, radiorabitə və radiolakasiyanın tədrisi təklif edilmişdir. Bu fəsildən sonra “Sabit cərəyan qanunları”, “Müxtəlif mühitlərdə elektrik cərəyanı” mövzularının məntiqi ardıcıllıqla tədrisi nəzərdə tutulmuşdur;

• əvvəlki fizika proqramından fərqli olaraq yeni fizika kursu üç nəzəriyyənin: molekulyar-kinetik, elektron və sahələr nəzəriyyələrinin təsəvvürləri əsasında qurulmuşdur;

• **daxili enerji anlayışının geniş mənada şərhinin mümkünlüyü göstərilmiş və bunu reallaşdırmaq məqsədilə yeni mövzular təklif olunmuşdur;**

• təbiətdə baş verən proseslərin ehtimal və statistik xarakterli olması ilk dəfə orta məktəbə gətirilmişdir;

- fiziki hadisələrin dərk edilməsində müşahidələrin, təcrübə və nəzəriyyələrin rolu əsaslandırılmış, məkan, fəza və zaman anlayışlarına vahid yanaşma prinsipləri müəyyən edilmişdir;
- ümumi orta məktəbin fizika kursunun (7-9-cu siniflər) ilk dəfə olaraq sahələr haqqında fizikanın əldə etdiyi klassik və ən müasir elmi nəticələr ətrafında məntiqi inkişafı istiqamətində tədris olunması tövsiyə olunmuş, bu siniflərdə öyrədilməsi nəzərdə tutulan bütün tədris materialları qravitasiya, elektrik, maqnit və elektromaqnit sahələri ətrafında qruplaşdırılmışdır;
- tədris materialları: mexanika, elektrodinamika, relyativistik fizika və kvant fizikası inteqrativ yanaşma istiqamətində verilmişdir. Məs: Maksvelə görə elektrik, maqnit və optik hadisələrin birləşdirilməsi, Eynşteynin xüsusi nisbilik nəzəriyyəsi ilə fəza və zaman anlayışları, kvant mexanikasına görə maddə ilə sahənin, zərrəciklə dalğanın, atom fizikası ilə kimyanın əlaqələndirilməsi ideyası ön plana çəkilmişdir;
- Azərbaycanda fizikanın tədrisi tarixində ilk dəfə olaraq fizika kursu iki səviyyədə: A və B səviyyələrində verilmişdir. A səviyyəsində 10-11-ci siniflər üçün fizika kursları tamamilə yeni quruluşda verilmiş, elmi səviyyəsi xeyli yüksəldilmişdir;
- ilk dəfə olaraq "Dinamikanın əsasları" fəslindəki tədris materiallarının hamısı: dinamika qanunları, onlardan çıxan nəticələr mexaniki hərəkətin səbəbiyyət prinsipi ilə əlaqəli verilmişdir;
- "Saxlanma qanunları" fəslində isə əvvəlki proqramlardan fərqli olaraq, enerjinin saxlanma qanunu və zamanın bircinsliliyi anlayışları əlaqəli şəkildə, enerjinin saxlanması qanununun axan qazlara və mayelərə tətbiqinin öyrənilməsi şəklində planlaşdırılmışdır;
- impulsun saxlanma qanununun fəzanın bircinsliliyi ideyası ilə əlaqəli tədrisi nəzərdə tutulmuşdur;
- fizikanın tədrisi tarixində ilk dəfə olaraq 10-cu sinfin fizika kursuna "Relyativistik mexanika" elementləri mexanika kursunun quruluşuna daxil edilmişdir. Dünyanın klassik və relyativistik mexaniki mənzərələrinin əlaqələri və sərhədləri göstərilmişdir;
- molekulyar fizika bölməsində qaz, maye və bərk cisimlərin xassələrinin molekulyar-kinetik nəzəriyyə əsasında tədrisi nəzərdə tutulmuşdur;
- "Termodinamikanın əsasları" adlandırılmış fəsildə termodinamikanın I, II və III qanunları enerjinin saxlanması və çevrilməsi qanununun təzahür formalarından biri kimi öyrənilməsi əsaslandırılmışdır;
- 7-9-cu siniflərdə molekulyar-kinetik nəzəriyyə, elektron nəzəriyyəsi, sahələr nəzəriyyəsi barədə ən ümumi məlumat əldə etmək məqsədilə, fiziki hadisə, anlayış və qanunlar həmin nəzəriyyələrə uyğun şərh edilmişdir;
- “Bərk cisimlərin xassələri” fəslinə yeni mövzular; kristallik qəfəslər, rabitəyə görə qəfəslərin təsnifatı (metallik, atom, ion və molekulyar) xassələrinin formalaşmasında rabitələrin rolu, gərginlik diaqramı və s. daxil edilmişdir;
- “Termodinamikanın əsasları” iki yeni anlayışın-termodinamikda ehtimal və entropiya öyrənilməsi təklif olunmuşdur;
- elektrodinamika bölməsinə sahələrin çevrilməsi, elektrik sahəsində yüklü zərrəciyin hərəkəti, maqnit sahəsində yüklü zərrəciyin hərəkəti, Lorens qüvvəsinin tətbiqi, biopotensiallar, elektrik cərəyanının və sahə enerjisinin sıxlığı adlı fiziki anlayış və hadisələr daxil olunmuşdur;
- nəzəri materiallar uyğun nümayiş təcrübələri və frontal laboratoriya işləri ilə müşayət olunması əsaslandırılmışdır. Belə ki, 7-9-cu siniflərdə 125 nümayiş təcrübəsi, 28 frontal laboratoriya işi və 16 tədris filmi, 10-11-ci siniflərdə isə 107 (A səviyyəsi üçün 52) nümayiş təcrübəsi 25 (7) frontal laboratoriya işi və 19 tədris filminin nümayişi nəzərdə tutulmuşdur;

- **7-9-cu siniflərdə 14 qanunun öyrədilməsi nəzərdə tutulmuşdur:**

- Nyutonun I, II, III qanunu.
- Paskal qanunu.
- Birləşmiş qablar qanunu.
- Arximed qanunu.
- Ümumdünya cazibə qanunu.
- Impulsun saxlanması qanunu.
- Enerjinin saxlanması qanunu.
- Elektrik yüklərinin saxlanması qanunu.
- Kulon qanunu.
- Dövrə hissəsi üçün Om qanunu.
- İşığın düz xətt üzrə yayılması qanunu.
- İşığın qayıtması qanunu.
- İşığın sınması qanunu.
- Nüvələrin yerdəyişməsi qanunu.

- **10-11-ci sinif proqramı mexanika, elektrodinamika, relyativistik və kvant-statistik nəzəriyyələri əsasında inteqrativ yanaşma istiqamətində hazırlanmışdır. Elektrik, maqnit və optik hadisələr Maksvellin tədqiqatlarına əsaslanmaqla, birləşmiş şəkildə təqdim olunmuş, fəza və zaman anlayışları Eynşteynin xüsusi nisbilik nəzəriyyəsinə uyğun şərh olunmuş, maddə ilə sahənin, zərrəciklə dalğanın qarşılıqlı əlaqəsi Kvant mexanikası əsasında izah edilmiş, Atom fizikasında fiziki-kimya və kimyəvi fizikadan götürülmüş ideyalar üstünlük təşkil etmişdir;**
- **10-11-ci siniflərin proqramı iki variantda verilmişdir: hamı üçün icbari "A" variantı, maraqlara görə tərtib olunmuş və xeyli dərinləşdirilmiş məzmunda "B" variantı: Əsas məzmun hər iki variantda aşağıdakı ardıcıllıqla verilmişdir:**

- Kinematikanın əsasları.
- Dinamikanın əsasları.
- Saxlanma qanunları.
- Termodinamika qanunları.
- Qravitasiya qüvvələri.
- Molekulyar fizika.
- Bərk cisimlərin xassələri.
- Termodinamikanın əsasları.
- Elementar zərrəciklər.

"A" variantının öyrənilməsinə 10-cu sinifdə 68, 11-ci sinifdə 34 saat vaxt ayrılmışdır. "B" variantında isə uyğun olaraq 136 və 173 saat nəzərdə tutulmuşdur [1, 3, 6 - 8].

Konsepsiyanın məqsəd və vəzifələri, quruluşu cəmiyyətimizin ehtiyac və tələbləri nəzərə alınmaqla, pedaqoji elmin tələbləri gözlənilməklə tərtib edilmiş, ümumtəhsil məktəblərində fizika fənninin tədrisinin müasir tələblərə uyğunluğunu təmin edən, aşağıdakı bir sıra üstün metodiki tələbləri özündə cəmləşdirmişdir:

1. Fizika fənn konsepsiyasının məzmunu:

- fizika elminə və fənninə aid olan xüsusi bilik və bacarıqların formalaşdırılması və inkişafı;
- fizikadan qazanılmış biliklər sistemi əsasında sərbəst bilik əldə etmə və yeni bilikləri sintez etmə bacarığının aşılanması.

- tədris prosesinin gedişində şagirdlərin ümumi-intellektual və şəxsi inkişafını təmin edən, dövlət və cəmiyyətin mənəvi dəyərlərini özündə cəmləşdirən sosial və şəxsiyyətyönümlü tərbiyənin formalaşdırılması və inkişafı.

2. Fizika fənn konsepsiyasının məqsədi:

- şagirdlərin sosial-iqtisadi şəraitə uyğun müasir tələblərə cavab verən həyata hazırlanması;
- şagirdlərin sağlam həyat tərzinin və vətəndaşlıq mövqeyinin üstünlüyü, respublika iqtisadiyyatının tələbləri nəzərə alınmaqla düşünülmüş peşə seçiminə hazır olması;
- şagirdlərin təhsillərini davam etdirməyə hazır olması.

3. Fizika dərsliyinin məzmunu və quruluşunun metodoloji prinsipləri:

- materiyanın xassələri və onun müxtəlif formalarda hərəkətinin fizika elminin əsaslarına daxil edilməsi;
- fundametal fiziki nəzəriyyələr və elmi fikirlərin formalaşdığı dövrlərə əsasən, materiyanın hərəkət formasının mürəkkəbləşməsinə uyğun ardıcıllıqla quruluşun öyrənilməsi;
- fizikanın hadisə və prosesləri, onlara aid qanunauyğunluqları öyrənən elmdən daha fundamental elm olması haqqında təsəvvürlərin yaradılması;
- fizikanın müasir texnika və innovasion texnologiyanın inkişaf istiqamətlərini müəyyənləşdirən elm kimi təbliğ edilməsi;
- bütün şagirdlər tərəfindən mənimsənilə bilən, eksperimental faktlara əsaslanan, fiziki anlayış, fundamental fiziki nəzəriyyələr və onlardan təcrübədə istifadə olunması ilə bağlı tədris məlumatlarının minimumluq prinsipinə əməl olunması;
- hər bir şagirdin şəxsi təhsil alma imkanının həyata keçirilməsini (o cümlədən fakültətiv və stimullaşdırıcı məşğələlərin köməyi ilə) təmin edən şəraitin yaradılması;
- elmin və pedaqoji təcrübənin müasir səviyyəsinə uyğunlaşan, metodoloji baxımdan vahid mövqe üç əsas məzmunda mərkəzləşmişdir:

I. Təbiət hadisələrinin fiziki metodlarla tədqiqi.

II. Fiziki sahələr və onlar arasındakı qarşılıqlı təsirin qanunauyğunluğu.

III. Insanın həyat fəaliyyətində fizikanın yeri.

4. Fizika dərsliyinin əsas məqsəd və vəzifələri:

- müxtəlif məlumat və informasiya texnologiyalarından istifadə etməklə fizikaya dair biliklərin əldə olunması prosesində intellektual və yaradıcı bacarıqların inkişafnının təmin olunması, şagirdlərin üstün həyata hazırlanması;
- şagirdlərdə bəşər mədəniyyətin yaranmasında fizikanın rolu və ictimai tərəqqidə onun əhəmiyyəti, fizika elminin ideyaları və metodları, fiziki nəzəriyyə və qanunların tətbiq olunma sərhədləri, fizikanın inkişafında rolu olan tanınmış alim- fiziklər haqqında təsəvvürlərin inkişafı;
- şagirdlərin dünyanın fiziki mənzərəsinin əsasında duran fundamental fiziki qanun və prinsipləri özündə birləşdirən texnika və texnologiyaların inkişafına təsir göstərən, fizika sahəsində edilmiş daha vacib kəşflərlə bağlı biliklər sisteminin mənimsəməsi;
- şagirdlərin dünyagörüşünün əsaslarının, mənəvi keyfiyyətləri, mədəni səviyyəsinin, estetik zövqün formalaşdırılması;
- şagirdlərə texnikanın, istimai-tərəqqinin, insan və təbiət arasında harmoniyanın yaradılmasında fizikanın əhəmiyyətinin şərh olunması;
- şagirdlərdə müşahidə aparmaq üçün tədqiqatçılıq bacarığının və fiziki eksperimentin planlaşdırılması, yerinə yetirilməsi və nəticəsinin qiymətləndirilməsi, fərziyyələr irəli sürmək, qurğular qurmaq, fizikadan alınmış biliklərin müxtəlif fiziki hadisə və maddələrin xassələrinin şərhində tətbiq etmək bacarığının formalaşdırılması;

- şagirdlərdə təbiətlə bağlı elmi məlumatların doğruluğuna inamın yaradılması;

- şagirdlərdə təbiətdən və ətraf aləmdən məqsədyönlü istifadə, həyat fəaliyyətinin təhlükəsizliyini təmin etmək məqsədilə fizikadan qazanılmış biliklərin təcrübədə tətbiq etmək bacarığının formalaşdırılması.

5. Fizika dərsliyinin məzmununun quruluşunun əsas prinsipləri:

- fizikadan dərsliyin məzmunu müəyyənləşdirilərkən ilk növbədə anlayış, fakt, metodlar əsas götürülməli, bir elm kimi fizikanın şagirdlərin təhsil və praktik fəaliyyətinin davam etdirilməsində gərəkli olaraq qalması;

- fizikanın məzmununu müəyyənləşdirilərkən onun inkişafetdirici funksiyasına, mənimsəmə üçün məlumatın minimum həcminin müəyyən edilməsinə və müxtəlif formalarda ümumiləşdirmə aparılmasına üstünlüyün verilməsi;

- fizika dərsliyinin məzmunu inkişafetdirici təlimin didakatik əsaslarına, elmilik, sistemlilik və ardıcıllıq, nəzəriyyə və təcrübənin əlaqəsinə uyğun olaraq qurulmuşdur.

6. Fizikanın tədrisinin quruluşuna verilən əsas tələblər:

- ümumi orta təhsilin müxtəlif pillələrində fizikanın öyrədilməsinin didaktik prinsiplərinin quruluşu və təşkili ümumi prinsiplər nəzərə alınmaqla vahid məzmunun formalaşmasına yönəldilmişdir;

- fizikanın məzmunu şagirdlərin maraq və tələblərini təmin etməlidir;

- ümumi orta təhsilin ikinci pilləsində fizikanın məzmunu xətti prinsipə görə qurulmuş, burada hər bir bölmə özündən əvvəlkinin məntiqi davamı kimi götürülmüşdür. Bu, özlüyündə tədris materialının quruluşunda məzmunun və fasiləsiz öyrətmə sisteminin davam etdirilməsinə şərait yaradır.

- ümumi orta təhsilin üçüncü pilləsində (10-11-ci siniflər) fizika dərsliyinin məzmununda fundamental fiziki nəzəriyyələrin daha da dərinləşdirilməsi ilə öyrədilməsi nəzərdə tutulmuşdur. Eyni zamanda alınmış biliklər müasir həyatla əlaqələndirilmiş, tətbiq olunma imkanları açıqlanmış və şagirdlərə dünyanın kvant-sahə mənzərəsini dərk etmələrində fənn və metodoloji biliklər sistemi formalaşdırmışdır;

- fizika kursunun məzmunu hər bir pillədə fizika elminin nailiyyətlərini insan cəmiyyətinin ətraf mühitlə qarşılıqlı münasibəti və əlaqəsində özunu göstərir;

- yeni və qismən dəyişən şəraitdə şagirdlərin fizikadan aldıqları bilikləri nəzəri və təcrübi məsələlərin həllində tətbiq etmə, bunların riyaziyyat və digər elmlərlə əlaqələndirmə bacarıqlarının formalaşdırılmasına üstünlük verilmişdir;

- proqram materiallarının sistem xarakterli olması, fizikanın məzmununun quruluşunda milli təhsil ənənələrinin saxlanılması məqsədəmüvafiq hesab edilmişdir;

- ümumtəhsilin bütün pillələrində tədris-təlim prosesinin bütün forma və metodları pedaqoji cəhətdən əsaslandırılmış, şagirdlərin yaş xüsusiyyətləri və qavrama qabiliyyətləri nəzərə alınmışdır;

- fizikanın tədrisinin təşkilati-metodiki təminatı müasir innovasiyalar hesabına yeniləşmişdir;

- tədris prosesinin təşkilində fakültətiv məşğələ, məsləhətvermə, ekskursiya-seminar, mühazirə, laboratoriya işi, eksperimental tədqiqatlar və sairdən istifadə əsaslandırılmışdır.

7. Fizika dərsliyi üzrə tədris-metodiki kompleksin tərkibi və strukturu:

Tədris-metodiki kompleksə əsas təlim vasitələri kimi dərslik (dərs vəsaiti), məsələlər toplusu, didaktik materiallar və müəllim üçün kitablar aiddir. Eyni zamanda buraya komputer proqramlarını, elektron dərslikləri, iş dəftərlərini, kino filmləri, cədvəlləri və s. aid etmək olar.

8. Əsas və əlavə təhsil sistemində fizikanın yüksək səviyyədə öyrədilməsi imkanları:

- əsas təhsil təhsil müəssisələrində dərs prosesində, əlavə təhsil isə fakültətiv məşğələlər, sinifdənxaric, məktəbdənkənar fəaliyyətdə, həmçinin məktəbdənkənar tərbiyə müəssisələrində aparıla bilər;

- fizikanin öyrədilməsi əsas təhsil təhsil standartlarına, tədris planına və müxtəlif xarakterli ümumtəhsil məktəblərinin tədris plan və proqramına uyğun olaraq təmin olunmalıdır;

- fizikadan fakültətiv məşğələlərlə həyata keçirilir. 10-11-ci siniflərdə xüsusi təyinatlı lisey və gimnaziyalarda fizikanın öyrədilməsinə ayrılan saatların miqdarının artırılması, şagirdlərdə nəinki minimum səviyyənin mənimsənilməsinə, həm də məzmunun yüksək səviyyəli təlim xüsusi təyinatlı gimnaziyalarda, liseylərdə və məktəblərdə digələrində isə dərinləşməsinə və müxtəlif tipli məsələlərin həllinə də köməklik göstərir, tədqiqatçılığa imkan yaradır;

- fizikadan aparılan fakültətiv məşğələlərin əsas məqsədi əsas təhsil proqramı ilə müəyyənləşdirilmiş məzmunun dərinləşdirilməsinə və fənnə marağın yaradılması yönəldilməlidir;

- əlavə təhsil orta ümumtəhsilin bütün pillələrində həyata keçirilə bilər [10, 12].

ƏDƏBİYYAT

1.Abaszadə A.A. "Azərbaycanda fizika-riyaziyyat və təbiət elmlərinin tədrisi metodikasının inkişafına dair", Azərbaycan məktəbi Bakı, 1960, № 4.

2.Azərbaycan Respublikasının Təhsil Sahəsində İslahat Proqramı, Bakı, Çaşıoğlu, 1999.

3.Qaralov Z.İ. Fizika qanunlarının tədrisi. Bakı., Elm, 1997, 320 s.

4.İmanov S.Ş. "Orta məktəbdə fizika tədrisi metodlarının seçilmə prinsipi və təsnifi", Bakı, API, 1987.

5.Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı, Mütərcim 2007.

6.Murquzov M.İ., Abdullayev S.Q., Abdurazaqov R.R., Əliyev N.A. Ümumtəhsil orta məktəblərinin 7-11-ci sinifləri üçün fizikadan yeni proqram və dərsliklərin konsepsiyası. Bakı, Qamma-S, 2003.

7.Ümumtəhsil orta məktəblərinin 7-11-ci sinifləri üçün fizika və astronomiya proqramları (M.İ.Murquzovun ümumi redaktorluğu ilə), (Təhsil Nazirliyinin 05.07.2002-ci il tarixli 729 saylı əmri ilə təsdiq edilmişdir), Bakı, Nigar-Ə, 2002.

8.Murquzov M.İ., Mehrabov A.O., Abdullayev S.Q., Abdurazaqov R.R., Əliyev N.A., Fizika. 7-11-ci sinif. Ümumtəhsil orta məktəbləri üçün dərslik. Bakı, Bakınəşr, Qamma-S, 2004.

9.Təhsil Haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, Qanun, 2010.

10. Усова А.Б. Теория и методика обучения физики. Санкт-Петербург, Медуза, 2002.

11. http://www.disszakaz.com/
12. http://www.mologiya2007.ru

ABSTRACT

Jafarov Seyfaddin
Hasanova Aysha

The modern conception of school physics course

The article investigates the methodological foundation for new programs and textbooks in physics for secondary school in grades 7-11. We consider excellence and distinction of new theoretical and methodological problems of teaching physics.

РЕЗЮМЕ

Джафаров Сейфаддин
Гасанова Айша

Современная концепция школьного курса физики

В статье исследуется методологические основы новых программы и учебников по физике для средней общеобразовательной школы в 7-11 классах. Рассматривается превосходства и различие новых теоретических и методических задач преподавания физики.

Одновременно рассматривается методологические возможности организации и управления обучения физики пути их применения в учебном процессе.

NDU-nun Elmi Şurasının 24 dekabr 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 05)

Məqaləni çapa təqdim etdi:

MÜNDƏRİCAT

RİYAZİYYAT

FİZİKA

KİMYA

TEXNİKİ ELMLƏR

METODİKA